# QOY ƏDALƏT ZƏFƏR ÇALSIN!



"SƏS" qəzeti mənim üçün ən aziz qəzetdir

№ 099 (7267)

11 iyun 2025-ci il.
Qiymәti 60 qәpik

"Dostluq və əməkdaşlıq münasibətlərimiz dinamik inkişaf edir"



4

## Gömrük xidmətində ən müasir texnologiyalar



2

Prezident İlham Əliyev Bakıda Dövlət Gömrük Komitəsinin yeni inzibati binasının açılışında iştirak edib

# Hamı Paşinyana, Paşinyan da hamıya qarşı...



3

"Bu gün Azərbaycan Ordusu dünyanın ən güclü orduları sırasındadır"




4

Yaşamağım üçün qan verərsən?



13

"Fermerlərin bazarlara birbaşa çıxışı asanlaşdırılmalıdır"



16

Gecikmiş deyil, dəqiq seçim



11

Yeni nəsil media mətbuata nə verdi?



12

# Gömrük xidmətində ən müasir texnologiyalar

## Prezident İlham Əliyev Bakıda Dövlət Gömrük Komitəsinin yeni inzibati binasının açılışında iştirak edib

***Hər bir ölkənin dövlətçiliyi sərhəddən başlayır, mükəmməl siyasətin əsas konturları elə sərhəd dirəkləri ilə müəyyənləşir. Gömrük xidməti dövlətçiliyin mühüm və əhəmiyyətli amillərindən biri hesab olunur. Azərbaycan dövlətinin iqtisadi strategiyasının həyata keçirilməsində, dövlətçilik təməlinin möhkəmləndirilməsində gömrük xidməti önəmli mövqeyə malikdir. Ölkəmizin artan nüfuzu gömrük orqanlarında uğurların təminatçısı olmuş, dövlətin milli maraqlarına xidmət edən, iqtisadi təhlükəsizliyin keşiyində dayanan, sosial-iqtisadi inkişafı stimullaşdıran nüfuzlu bir orqana çevrilməsində əvəzolunmaz rol oynamışdır.***




Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev Bakıda Dövlət Gömrük Komitəsinin yeni inzibati binasının açılışında iştirak edib. Ümumi sahəsi 25 min kvadratmetr olan 18 mərtəbəli binada komitənin struktur bölmələrinin əməkdaşlarının yüksək səviyyədə çalışması üçün hərtərəfli şərait yaradılıb. Dövlət Gömrük Komitəsinin yeni inzibati binasının layihə-quraşdırma işlərində maksimum səviyyədə ən müasir texnologiyalardan istifadə olunub. Bütün layihəçilər, mühəndislər və inşaatçılar Azərbaycan vətəndaşlarıdır və ölkə universitetlərinin məzunlarıdırlar.



Buradakı Hədəf Mərkəzində ölkə üzrə yük nəqliyyat vasitələrinin hərəkəti elektron xəritədə müşahidə olunur. Eyni zamanda, Xəzər dənizində gəmilərə gömrük nəzarəti və gömrük postlarına real vaxt rejimində videomüşahidə həyata keçirilir. Binada süni intellekt əsaslı risk idarəetmə sistemi və informasiya texnologiyaları infrastrukturu yaradılıb. Həmçinin burada kibertəhdidlərin kəşfiyyatı və qarşısının alınması ilə bağlı xüsusi avadanlıq yerləşdirilib. Ümumilikdə yeni binada informasiya-kommunikasiya texnologiyaları geniş tətbiq olunub. Bu sistemlər mövcud və gələcək xidmətlərin artırılmasını nəzərdə tutub.

Binanın 5-ci mərtəbəsində 1200 kvadratmetrlik asma bağ salınıb, müxtəlif növ ağac və dekorativ gül kolları əkilib. 500 kvadratmetrlik açıq sahədə əməkdaşların istirahəti və gəzintisi üçün guşə yaradılıb, kafe inşa olunub. Binada gömrük xidməti əməkdaşlarının iş otaqlarından başqa 500 nəfərlik konfrans zalı, 17 iclas otağı, atıcılıq tiri, idman sahələri, yeməkxana, kafe var. Dövlətimizin başçısı gömrük orqanları tərəfindən ayrı-ayrı vaxtlarda müsadirə olunmuş tarixi-mədəni əşyalardan ibarət muzeyə baxıb. Burada eramızdan əvvəl birinci minillikdən XX əsrin 50-ci illərinədək dünya ölkələrinin tarixini əhatə edən eksponatlar sərgilənir.

### GÖMRÜK ƏMƏLİYYATLARI ASANLAŞDIRILIR VƏ SÜRƏTLƏNDİRİLİR

Qeyd edək ki, Şimal-Cənub və Şərq-Qərb nəqliyyat dəhlizləri üzərində yerləşən, son illərdə həyata keçirilən irimiqyaslı layihələr hesabına beynəlxalq ticarətin asan və sürətli şəkildə reallaşdırılmasında ölkəmizin əhəmiyyətli rolu nəzərə alınmaqla gömrük işinin müasir səviyyədə təşkili, bu sahədə xidmət səviyyəsinin yüksəldilməsi istiqamətində mühüm addımlar atılır. Azərbaycan Prezidentinin rəhbərliyi ilə gömrük sisteminin inkişafı istiqamətində həyata keçirilən islahatlar hesabına indi ölkəmizin gömrük xidmətində ən müasir texnologiyaların, qabaqcıl təcrübənin, elmi əsaslı layihələrin, rəqəmsal həllərin tətbiqi həyata keçirilir. Reallaşdırılan qabaqcıl texnoloji həllər gömrük əməliyyatlarının asanlaşdırılması və sürətləndirilməsi, iqtisadi təhlükəsizliyin daha etibarlı təmin olunması ilə yanaşı, şəffaflığın artırılmasına, gömrük-biznes əməkdaşlığının qarşılıqlı etimad əsasında gücləndirilməsinə, xidmət səviyyəsinin yüksəldilməsinə əlavə imkanlar yaradıb.

### AZƏRBAYCAN GÖMRÜYÜNÜN İNKİŞAFI ULU ÖNDƏR HEYDƏR ƏLİYEVİN ADI İLƏ BAĞLIDIR

Belə bir şəraitdə Naxçıvan Muxtar Respublikası Ali Məclisinin 24 fevral 1992-ci il tarixli qərarı ilə Naxçıvan MR Gömrük Komitəsinin yaradıldı və beləliklə, əsl milli gömrük xidmətinin formalaşdırılması istiqamətində mühüm addım atıldı.

Yeni gömrük orqanları və sərhəd gömrük postlarının açılması, beynəlxalq standartlara uyğun qanunvericilik bazasının yaradılması və Gömrük Məcəlləsinin qəbul edilməsi, ən mühüm dövlət tapşırıqlarından biri olan dövlət büdcəsinin formalaşdırılmasında yaxından iştirak etməsi, gömrük işinin beynəlxalq normalara uyğun təşkil olunması, Ümumdünya Gömrük Təşkilatının üzvü kimi inkişaf etmiş dövlətlərin gömrük təşkilatları ilə əməkdaşlığın genişləndirilməsi və s. bu kimi irəliləyişlərə nail olmuşdur. Gömrük xidmətinin yaranma tarixinə nəzər salsaq görərik ki, Azərbaycan gömrüyünün inkişafında əvəzedilməz rolu olan Ulu Öndər Heydər Əliyev bu orqanın fəaliyyətini daim diqqətdə saxlayıb. Ümummilli lider Heydər Əliyevin ikinci dəfə hakimiyyətə qayıdışından sonra bütün sahələrdə olduğu kimi, gömrük xidmətində də islahatlar aparılmış, DGK-nın fəaliyyətində ciddi dönüş yaranmışdır. Azərbaycan gömrüyü qısa zaman kəsiyində respublikanın iqtisadi suverenliyinin və təhlükəsizliyinin etibarlı təminatçısına çevrilmişdir.





### "BİZ ELƏ BİR GÖMRÜK ORQANI YARATMALIYIQ Kİ, O, XARİCİ- İQTİSADİ ƏLAQƏLƏRİMİZDƏ ÖZ YERİNİ TUTSUN"

Azərbaycanın XXI əsrin astanasında müstəqillik əldə etməsi onun tarixində yeni bir mərhələnin başlanğıcı oldu. Ulu Öndər Heydər Əliyev deyirdi: "Biz elə bir gömrük orqanı yaratmalıyıq ki, o, xarici- iqtisadi əlaqələrimizdə öz yerini tutsun, iqtisadiyyatımızın inkişafına xidmət etsin, bütün hallarda müstəqil Azərbaycanın nüfuzunun yüksəldilməsinə öz töhfəsini versin". Prezident Heydər Əliyevin sərəncamına əsasən 1997-ci ildən etibarən 30 yanvar tarixinin gömrük əməkdaşlarının peşə bayramı günü kimi qeyd edilməsi Ulu Öndərin bu orqanın fəaliyyətinə verdiyi yüksək qiymətin, diqqət və qayğının bariz təzahürü idi.

Ümumdünya Gömrük Təşkilatı Siyasi Komissiyasının 44-cü sessiyasının 2000-ci ilin dekabr ayında müstəsna hal kimi Bakı şəhərində keçirilməsi (Azərbaycan Müstəqil Dövlətlər Birliyində belə bir tədbirin həyata keçirildiyi ilk ölkə oldu) və sessiya iştirakçılarının Azərbaycan Respublikasının Prezidenti Heydər Əliyev tərəfindən qəbulu dövlət başçısının bu sahəyə xüsusi diqqətini, Azərbaycan gömrük təşkilatının qısa bir müddətdə həqiqətən inkişaf etdiyini və ölkəmizin beynəlxalq aləmdə artan nüfuzunu, dünya dövlətlərinin gömrük xidmətləri ilə sıx əməkdaşlığını əyani olaraq bir daha göstərdi. Azərbaycanın beynəlxalq gömrük əməkdaşlığı sahəsində atdığı müsbət addımların nəticəsi olaraq 1996-cı ildə Avropa Birliyi və ona üzv olan dövlətlərlə Tərəfdaşlıq və Əməkdaşlıq Sazişi imzalanıb.

### MÜKƏMMƏL HÜQUQİ BAZAYA MALİK GÖMRÜK XİDMƏTİ

Hazırda Prezident İlham Əliyev tərəfindən Azərbaycan gömrüyünün ənənələrinin qorunub saxlanılması və daha da təkmilləşdirilməsi işin daim diqqət mərkəzində saxlanılır. Azərbaycanda gömrük işinin təkmilləşdirilməsi, gömrük orqanlarının maddi-texniki və normativ-hüquqi bazasının möhkəmləndirilməsi, dünya gömrük sisteminə inteqrasiyası istiqamətində uğurlu addımlar atılır. Prezident İlham Əliyevin bütün sahələrdə həyata keçirdiyi islahatlar çərçivəsində son illərdə gömrük sistemində qabaqcıl beynəlxalq təcrübələrə və çağırışlara, elmi yanaşmalara uyğun olaraq təkmilləşdirilmələr aparılır. Bu məqsədlə 2022-ci ildə Gömrük Xidmətinin Fəaliyyət Proqramı təsdiq edildi və şəffaflıq, məmnuniyyət, rəqəmsallaşma, dayanıqlı gömrük ödənişləri, güclü və güvənli hüquq-mühafizə tədbirləri gömrük orqanlarının strateji hədəfləri kimi müəyyənləşdirildi.

Bu gün Azərbaycan Gömrük Xidməti mükəmməl hüquqi bazaya, inkişaf etmiş infrastruktura malik olmaqla, bütövləşən ölkəmizin quru, hava və dəniz yollarında respublikanın iqtisadi mənafeyini və təhlükəsizliyini qoruyur, qaçaqmalçılığa qarşı qətiyyətlə mübarizə aparır. Öz fəaliyyətini müasir dövrün tələbləri səviyyəsində qurmağa çalışan Dövlət Gömrük Komitəsi xarici ölkələrin gömrük orqanları ilə işgüzar əlaqələr yaratmaqla əməkdaşlığı genişləndirmişdir. Dövlət Gömrük Komitəsi gömrük işinin təşkili prosesində informasiya texnologiyalarının tətbiqini, rəqəmsallaşmanı daim genişləndirir. Həyata keçirilən tədbirlər çərçivəsində 2016-cı ildə elektron bəyanetmə prosesinə start verildi. "Smart customs" layihəsinin tətbiqi hesabına bütün gömrük əməliyyatlarının mobil cihazlardan həyata keçirilməsi imkanı yaradıldı.

Müasir texnologiyaların, rəqəmsal həllərin gömrük sistemində tətbiq edilməsi Azərbaycan gömrük xidmətinin strateji hədəflərindəndir. Bu məqsədlə Azərbaycan gömrük xidmətinin əməkdaşları tərəfindən hazırlanaraq 2024-cü ilin əvvəlindən tətbiqinə başlanan süni intellekt əsaslı maşın öyrənmə alqoritmləri ilə işləyən Avtomatlaşdırılmış Risk Analizi Sistemi (ARAS) sərhədkeçmə və rəsmiləşdirilmə proseslərinin sürətləndirilməsinə, əlavə vaxt və vəsait itkisinin aradan qaldırılmasına, uçot sisteminin düzgün qurulmasına əlavə imkanlar yaratdı.

Əsası Ümummilli Lider Heydər Əliyev tərəfindən qoyulan, onun diqqət və qayğısı sayəsində dövlət müstəqilliyimizin əsas atributlarından birinə çevrilən gömrük xidməti Azərbaycan Prezidenti İlham Əliyevin rəhbərliyi altında sürətlə və dinamik inkişaf edir.

***Zümrüd BAYRAMOVA***

# Hamı Paşinyana, Paşinyan da hamıya qarşı...

***Ermənistan növbəti parlament seçkilərinə hazırlaşır. Düz bir ildən sonra ölkənin və Paşinyanın taleyinə aydınlıq gətiriləcək, ya tamam, ya da davam. Siyasi partiyaların gücü indiki hökuməti devirməyə yetərli deyil, birləşmək ehtimalı da hələlik yoxdur. Kilsə də gücünü və imkanlarını itirib, keşiş Baqratın başlatdığı hərəkatın ömrü İrəvana qədər oldu, iki-üç etiraz aksiyası ilə missiyasını tamamladı. Bu gün isə meydana eks-lərdən tutmuş kriminal aləmin tanınmışlarına, siyasilərdən din xadimlərinə qədər axın edənlər var. Proqnoz verənlər, ekstrasenslik edənlər, hətta Paşinyanın məğlub etmək üçün onu fiziki olaraq məhv etməyə çalışanlar İrəvan küçələrində hər addımda rast gəlinir. Bəs siyasətçilər Ermənistanın gələcəyi, Nikolun taleyi barədə nə düşünürlər?***



## Şarmazanov: ”Nikol Paşinyandan qurtulmağın iki yolu var”

”Etimadsızlıq prosesi başlayıb və biz görürük ki, indi daxili siyasi gündəmin əsas məsələsi budur”. Bunu iyunun 9-da jurnalistlərlə söhbətində Ermənistan parlamentinin keçmiş vitse-spikeri, RPA-nın mətbuat katibi Eduard Şarmazanov deyib. ”Nikol Paşinyandan qurtulmağın iki yolu var: biri ona etimadsızlıq bildirmək, ikincisi seçkilər. Seçkilərə hələ bir il var, erməni xalqı, hər bir müxalifətçi və bundan narahat olan vətəndaş üçün, iyun seçkilərini gözləmək prosesi böyük dəbdəbə olacaq, Paşinyan bu il səsverməni həyata keçirmək üçün başqa nədən imtina edə bilər?

Bu, yeni baş nazirin seçilməsi prosesi deyil, bunun üzərində dayanmamalıyıq. Bu, artıq ”Mənim şərəfim var” blokunun fraksiyasının imzaladığı hökumət başçısına etimadsızlıq səsverməsi prosesidir. ”Ermənistan bloku” fraksiyası öz fikrini bildirib və 28 deputatın imzasını təqdim etməyə hazır olduğunu qeyd edib və danışıqlara çağırıb və ya təklif edib. Düşünürəm ki, danışıqlar olacaq. Bu bəyanata müsbət münasibət bəsləyirəm. Sadəcə olaraq başqa variant yoxdur. ”Mənim Şərəfim Var” alyansı David Hambardzumyanı baş nazirliyə namizəd kimi irəli sürüb, ona çox müsbət münasibət bəsləyirəm. Bu, 2018-ci ildən bəri hər gün Nikol Paşinyan rejiminə qarşı mübarizə aparan şəxsdir.

Bu şəxs Masis mer seçkilərində qalib gəlib. Etimadsızlıq səsverməsinin məqsədinə çatması üçün bizə təcrübəyə, əyilməz iradəyə, milli dəyərlərə malik namizəd lazımdır. Hambardzumyan isə bu üç keyfiyyətə malikdir”, - Şarmazanov bildirib. Müxalifətin baş nazirə etimadsızlıq səsi vermək üçün kifayət qədər səs toplamamasına gəlincə, Şarmazanov deyib: ”Hər kəs öz növbəsində. Cəmi 1-2 ay əvvəl hətta müxalifət sahəsinin böyük əksəriyyəti də bu prosesi qeyri-ciddi hesab edirdi. İndi iş o yerə çatıb ki, bizim namizədimiz var və iki fraksiya artıq bu gündəm ətrafında müzakirələr aparmağa hazırlaşır”.

## ”Nikol Paşinyan qan tökülmədən hakimiyyətdən uzaqlaşdırılacaq”

”İyunun 9-na olan məlumata görə, Nikol Paşinyan Ermənistan parlamentin cəmi 71 deputatının etimadını qazanır. Bir neçə ay əvvəl 107, sonra 105, şənbə günü 99, indi isə 71 deputat var. Və bu rəqəm təkcə azalmır - sürətlə aşağı düşür”. Bunu ”Yatma” (Artun enq) hərəkatının həmtəsisçisi Edqar Qazaryan ”Ermənistan” parlament fraksiyasının rəhbərinin bu gün səhər saatlarında verdiyi bəyanatı şərh edərkən yazıb. ”Yatma” müxalifət hərəkatı bir müddət əvvəl parlamentə Ermənistan Milli Assambleyasının bütün deputatlarına ünvanlanmış məktublarda baş nazir Nikol Paşinyana etimadsızlıq səsverməsi prosesinin başlanmasına çağırıb. Edqar Qazaryan daha sonra bildirib ki, məktublar fraksiya liderlərinə deyil, şəxsən bütün 107 deputata göndərilib. Bu gün Qazaryan qeyd edib: ”Cəmi 18 deputatın Konstitusiya və qanunların tələbləri əsasında qəbul etdiyi ağlabatan qərarlar nəticəsində biz istədiyimiz rəqəmə və istədiyimiz nəticəyə nail olacağıq. İmpiçment olacaq. Nikol Paşinyan konstitusiya yolu ilə, sülh yolu ilə, qan tökülmədən hakimiyyətdən uzaqlaşdırılacaq. Bir ay əvvəl heç kim bu reallığa inanmırdı. Bəziləri hələ də gələcək reallığa inanmır”.

Xatırladaq ki, Ermənistan Respublika Partiyasının (ERP) İcra orqanının bəyanatını nəzərə alaraq, Ermənistan Respublikası Milli Assambleyasının bu il iyunun 7-də keçirilən iclasında ”Mənim şərəfim var” fraksiyası ”Ruless”in konstitusiya qanununa uyğun olaraq, baş nazirə etimad göstərməmək barədə vəsatət vermək barədə yekdilliklə qərar qəbul edib. Baş nazir vəzifəsinə namizəd kimi ER Milli Assambleyasının ”Mənim şərəfim var” fraksiyası RPA Şurasının üzvü, Masis icmasının rəhbəri David Hambardzumyanı irəli sürüb. Bu gün, iyunun 9-da müxalifətdə olan ”Ermənistan” parlament fraksiyasının rəhbəri Seyran Ohanyan bəyan edib: ”Ermənistan” fraksiyası əvvəllər verdiyi bəyanata sadiq qalaraq, parlamentdə impiçment prosesinin başlanması üçün ağlabatan müddət ərzində çatışmayan 28 deputat imzasını təqdim etməyə hazır olduğunu bir daha təsdiqləyir.

## Birincilərin impiçmentlə oyunları

Cəmiyyət daha az şər olanı seçəcək və ona görə də indiki şəraitdə nə Köçəryanın, nə Sarkisyanın, nə də xüsusilə Ambartsumyanın Paşinyandan kreslo almaq şansı yoxdur. Son bir neçə gündə ən çox müzakirə olunan xəbərlərdən biri də ”Mənim şərəfim var” müxalifət fraksiyasının təmsil etdiyi Sarkisyanın Ermənistan Respublika Partiyasının hazırkı hökumət başçısının impiçment prosesinə başlamaq və Ararat vilayətinin Masis icmasının rəhbəri, RPA Şurasının üzvü David Ambartsumyanın bu vəzifəyə namizədliyini irəli sürməsi olub. Baş nazirliyə namizədin özü də təbii ki, bu şirnikləndirici təklifi məmnuniyyətlə qəbul edib və hətta artıq mediada çıxışlar edib.

Ermənistandakılar ölkələrini demokratik adlandırırlar və parlamentdə hökumətə etimadsızlıq votumu bildirməyi demokratik dövlətdə müxalifətin qanuni hüquqlarından biri hesab edirlər. Amma, necə deyərlər, burada bir döngə var. Müxalifət hesab edir ki, Ermənistan məhz indi etimadsızlıq elan etməyə çalışdıqlarının sayəsində demokratikləşib. Etimadsızlıq səsverməsinin baş tutması üçün deputatların səsi lazımdır. Müxalifətin - ”Ermənistan” və ”Mənim şərəfim var” fraksiyalarının parlamentdə cəmi 34 deputatı var. Daha 20 deputatın səsini haradan alacaqlar? Axı reqlamentə görə, hökumət başçısına etimadsızlıq bildirmək üçün 107 deputatdan azı 54-ü impiçmentə səs verməlidir. Düzdür, ”Ermənistan” fraksiyasından olan deputat Artur Xaçatryan müstəqil deputatların dəstəyini necə təmin edə biləcəyi ilə bağlı nəsə mızıldanır, amma parlamentdə onlardan cəmi 4-ü var. Daha 16-nı haradan alacaq? Yoxsa Mülki Müqavilədən olan deputatların onların sərsəm ideyasını dəstəkləyəcəyini düşünür? Tamamilə axmaq bir fərziyyədir.

Parlamentdəki müxalifət baş nazir postuna namizədlə bağlı öz aralarında belə razılığa gələ bilmir. Xüsusilə, həmin Xaçatryan iddia edir ki, Ambartsumyanın namizədliyi ilə bağlı fraksiya müzakirələr aparacaq, blokun iki komponenti öz rəyini bildirəcək, bundan sonra qərar və bəyanat veriləcək. Yəni, Köçəryanla Sarkisyanın razılığa gələ biləcəkləri tamamilə yalandır. Üstəlik, onların hər biri ürəyində Paşinyanın kreslosunda oturmaq arzusunda olduğu üçün burada pərdəarxası oyun kifayət qədər aqressiv olacaq. Xaçatryan nədənsə Paşinyanı küçə ilə hədələyir: ”Biz həmişə demişik ki, küçə təzyiqi olmadan hakimiyyətin dəyişməsi mümkün deyil”. Təbii ki, birinci halda, 2018-ci ilin yazı hadisələri sübut etdiyi kimi, küçə təzyiqi olmadan hakimiyyətin dəyişməsi mümkün deyil. Amma o zaman məhz indi hakimiyyətə can atanları vəzifələrindən atdılar. İndi birincilər Paşinyanın taktikasından istifadə etməyə çalışırlar, lakin bu təşəbbüs uğursuzluğa məhkumdur - bütövlükdə xalq çətin ki, onlara əməl etsin.

Ambartsumyanın namizədliyi onu Paşinyana qarşı qoymaqdır. Bəli, bəlkə də onun Masisdə müəyyən səlahiyyəti var, amma bütün ölkədə yox. İrəvanın, Gümrü, İcevanın Ambartsumyanın ardınca gedəcəyini gözləmək axmaqlıqdır. Bundan əlavə, 2018-ci ilin yazında Respublika meydanında saat 19:00-a planlaşdırılan mitinqdə iştirak etmək üçün İrəvana doğru yürüş edən Ararat bölgəsinin sakinlərinə hücum edən David və onun qardaşı Qorun hadisələrində oynadıqları rol hələ də hər kəsin yadındadır. Hücum edənlər silahdan istifadə ediblər. Dörd nəfər zərərçəkmiş kimi tanınıb. David Ambartsumyanın qardaşının fahişəliyə şərait yaratmaqla bağlı biabırçı işdə həbs edildiyini ermənilər indi də xatırlayırlar. Müxalifət isə hakimiyyətə iddialılardan xahiş edir ki, belə adamları öz komandalarına seçsinlər.

Artıq məlumdur ki, Parlamentə növbəti seçkilər 2026-cı il iyunun 7-də keçiriləcək. Ermənistanda keçirilən bütün son seçkilər onlara etimad göstərə biləcəyini göstərdi. Sadəcə ona görə ki, Paşinyanın heç nəyi saxtalaşdırmağa ehtiyacı yoxdur: cəmiyyət iki şərdən - indiki hakimiyyət və keçmiş hakimiyyətdən daha kiçik olanı seçəcək. Və şübhəsiz ki, özünü daha çox populist kimi göstərsə də, hələ də demokrat olan Paşinyandır. İndiki şəraitdə nə Köçəryanın, nə Sarkisyanın, nə də xüsusilə Ambartsumyanın Paşinyanın kreslosunu tutmaq şansı yoxdur. Və bunu başa düşürlər. Ona görə də bütün bu hay-küyləri qabaqcadan məhkum olunmuş impiçmentlə başlayıblar ki, heç olmasa bu yolla gündəmdə qalsınlar, mediada görünsünlər.

## Paşinyan isə fəaliyyətə katolikosdan başlayır

Hökumət başçısı koordinasiya qrupunun üzvlərinin seçilməsi meyarlarını göstərib. Ermənistanın baş naziri Nikol Paşinyan ali ruhanilərlə mübarizədə əməli fəaliyyətə keçir. O, II Qaregini vəzifədən uzaqlaşdırmaq və bütün ermənilərdən yeni katolikos seçmək üçün koordinasiya qrupu yaratmaq niyyətindədir. Daha əvvəl hieromonk Asoqik Karapetyan bəyan etmişdi ki, erməni kilsəsinə qarşı dövlət səviyyəsində terror hazırlanır, səlahiyyətli orqanlar isə fəaliyyətsizdir. Hökumət başçısının sosial şəbəkədə qeyd etdiyi kimi, koordinasiya qrupunun ilk 10 üzvünü özü seçəcək. Hətta seçim meyarlarını da göstərib.

Paşinyana görə, ermənilərə elə insanlar lazımdır ki, bunlar İsa Məsihə bütün qəlbləri ilə inansınlar, həyatlarında ən azı bir dəfə Müqəddəs Kitabı əvvəldən axıra qədər oxusunlar. Qrupun potensial üzvləri onu da başa düşürlər ki, Eçmiədzin kilsəsinin yenilənməsi gündəliyi Erməni Apostol Müqəddəs Kilsəsinin, ermənilərin, Ermənistan dövlətinin maraqlarından qaynaqlanır və ənənəyə uyğundur. ”Mən başa düşürəm ki, meyarların əksəriyyətini obyektiv yoxlamaq mümkün deyil, lakin üns iyyət zamanı, söhbətlər zamanı Allahın köməyi ilə biz bunu öyrənə bilərik, can gözü ilə görə bilərik”, - baş nazir bildirib. Mayın 29-dan Ermənistanın baş naziri Nikol Paşinyan mütəmadi olaraq ən yüksək erməni ruhanilərini tənqid edib. Paşinyanın fikrincə, subaylıq andını pozanların hamısının üzünü kəsmək lazımdır. İyunun 9-da Paşinyan birbaşa olaraq bütün ermənilərin katolikosu II Qaregini subaylığı pozmaqda ittiham edib. O bildirib ki, katolikosun övladı var və lazım gələrsə, sübut təqdim etməyə hazırdır. Paşinyan hesab edir ki, katolikos taxtdan əl çəkməlidir. Hökumət başçısı dindarları birləşməyə və ”patriarxal iqamətgahı azad etməyə” çağırıb.

***V.VƏLİYEV***

# "Dostluq və əməkdaşlıq münasibətlərimiz dinamik inkişaf edir"

## Baş nazir Əli Əsədov Daşkənddə Özbəkistan Prezidenti Şavkat Mirziyoyevlə görüşüb





***Özbəkistanda rəsmi səfərdə olan Azərbaycanın Baş naziri Əli Əsədov iyunun 10-da bu ölkənin Prezidenti Şavkat Mirziyoyevlə görüşüb. Nazirlər Kabinetindən AZƏRTAC-a bildiriblər ki, Ə.Əsədov Azərbaycan Prezidenti İlham Əliyevin salamlarını Özbəkistanın dövlət başçısına çatdırıb.***

Şavkat Mirziyoyev Prezident İlham Əliyevin salamlarına görə minnətdarlığını bildirib, onun da salamlarını Azərbaycanın dövlət başçısına çatdırmağı xahiş edib.

Görüşdə Azərbaycan ilə Özbəkistan arasında dostluq və əməkdaşlıq münasibətlərinin dinamik inkişafından məmnunluq ifadə olunub, əlaqələrin müttəfiqlik səviyyəsinə çatmasının əhəmiyyəti vurğulanıb.

İkitərəfli əməkdaşlığın qarşılıqlı maraq doğuran bir çox sahələrdə inkişaf perspektivləri müzakirə edilib. Ə.Əsədov Özbəkistan yığmasının tarixdə ilk dəfə futbol üzrə dünya çempionatına vəsiqə qazanması münasibətilə Prezident Şavkat Mirziyoyevi təbrik edib.

# Akkan Suver: Türkiyə, Azərbaycan və Pakistan liderlərinin mövcud çətinliklər qarşısında birlikdə olması çox əhəmiyyətlidir


EKONOMİYE VE POLİTİKAYA YÖN VERENLERİN GAZETESİ
/GozlemGazetesi
@Gozlem_Gazetesi
gazetegozlem
GÖZLEM
YIL: 34 2025 - 23 / 06-13 HAZİRAN 2025 / FİYATI: 120 TL
www.gozlemgazete...
Akkan SUVER
haber@gozlemgazetesi.com
Türkiye, Azerbaycan ve Pakistan
Geride bıraktığımız hafta içinde Azerbaycan'ın Laçin şehrinde "Azerbaycan Bağımsızlık Günü" nedeniyle İlham Aliyev, Recep Tayyip Erdoğan

***Ötən ay Müstəqillik Günü münasibətilə Azərbaycan və Türkiyə prezidentləri İlham Əliyev və Rəcəb Tayyib Ərdoğan, eləcə də Pakistanın Baş naziri Məhəmməd Şahbaz Şərif Laçında bir araya gəldilər. Türkiyə, Azərbaycan və Pakistan liderlərinin mövcud çətinliklər qarşısında həmrəylik və birgə hərəkət qabiliyyətinin artırılması məqsədilə birlikdə olması çox əhəmiyyətlidir.***

AZƏRTAC xəbər verir ki, bu fikirlər Mərmərə Qrupu Strateji və Sosial Araşdırmalar Vəqfinin sədri, professor Akkan Suverin Türkiyənin "Gözlem" qəzetində dərc olunmuş məqaləsində yer alıb.

Laçında keçirilən görüşlərdə ortaq coğrafiyalarda təhlükəsizlik təhdidlərinə qarşı birgə mübarizə, iqtisadi sahənin inkişafı, enerji və qida böhranlarının birlikdə aradan qaldırılması kimi mövzuların müzakirə olunduğunu bildirən Akkan Suver əlavə edib: "Azərbaycan Prezidenti İlham Əliyevin rəhbərliyi ilə keçirilən bu Zirvə görüşünü Qərbdə qurulmaqda olan yeni dünya nizamı ilə yanaşı, Şərqin yüksələn güc və dəyərlərinin birləşdirilməsinə yönəlmiş bir addım, bir başlanğıc kimi qiymətləndirmək olar. Türkiyə, Azərbaycan və Pakistan bu Zirvə görüşündə xarici siyasətə istiqamət verə biləcək yeni platforma qura biləcəklərinin siqnallarını verdilər. Ümumi əhalisi 350 milyon və iqtisadi gücü 1,5 trilyon dollar olan bu üç ölkənin strateji əməkdaşlığı coğrafiyamız üçün böyük əhəmiyyət daşıyır".

O bildirib ki, Avrasiyanın kəsişməsində yerləşən Azərbaycan, Pakistan və Türkiyə nəqliyyat sahəsində də "İnkişaf yolu", Orta Dəhliz və Şimal-Cənub Nəqliyyat Dəhlizinin birləşdirici həlqələri kimi bölgəyə birlikdə rəhbərlik edə bilər. Blokların və qütbləşmənin artdığı müasir dövrdə reallaşan bu əməkdaşlıq beynəlxalq sistemə yeni töhfədir.

"Qeyd etməliyik ki, Azərbaycan və Türkiyənin əməkdaşlığı ilə bölgəmizdə enerji xəritəsi yenidən formalaşıb. Həmçinin Azərbaycan və Türkiyə Pakistan ilə Hindistan arasında yaşanan münaqişədə rəsmi İslamabadın ərazi bütövlüyünə tam dəstək göstərirlər ki, bu da xüsusi qeyd olunmalı bir həqiqətdir", - deyə Akkan Suver bildirib.

O qeyd edib ki, əgər bölgəmizin Şərqi Aralıq dənizi, Kipr, Qarabağ və Kəşmir kimi müxtəlif coğrafiyalarındakı münaqişələrin bənzər əsaslara söykəndiyini qəbul etsək, birgə hərəkətin əhəmiyyəti və zəruriliyi də özü-özlüyündə aydın olacaq.

Professor məqaləsini Azərbaycan Prezidenti İlham Əliyevin Laçın şəhərində 28 May - Müstəqillik Gününə həsr edilmiş konsertdən əvvəl çıxışı zamanı səsləndirdiyi "Bu gün bizim üçtərəfli əməkdaşlığımızın (Azərbaycan-Türkiyə-Pakistan əməkdaşlığı - red.) yeni səhifəsi açılır. Bu gün müzakirə etdiyimiz məsələlər, əldə etdiyimiz razılaşmalar bizi bir-birimizə yaxın edəcək" fikirləri ilə yekunlaşdırıb.

# "Bu gün Azərbaycan Ordusu dünyanın ən güclü orduları sırasındadır"

"1918-ci ildə Şərqdə ilk cümhuriyyəti quran babalarımız həmin ilin 26 iyun tarixində Azərbaycan Ordusunun əsasını qoydular". Bu sözləri SİA-ya açıqlamasında "Tərxis Olunmuş Hərbiçilərin Gəncləri Maarifləndirmə" İctimai Birliyinin sədri, hərbi ekspert Emin Həsənli deyib. O bildirib ki, Silahlı Qüvvələrin yaradılmasında general Səməd bəy Mehmandarov, general-leytenant Əliağa Şıxlinski və digər hərb xadimləri mühüm rol oynadılar:" Onlar həm Azərbaycan Xalq Cümhuriyyətinin liderləri, həm də müstəqil ordunun təşkilatçıları kimi tarixə düşdülər.

Əliağa Şıxlinski, Səməd bəy Mehmandarov kimi tanınmış generalların rəhbərliyi ilə ordu quruculuğuna başlanıldı. Bu şəxslər, çar Rusiyası dövründə böyük hərbi təcrübə qazanmış və sonradan bu biliklərini müstəqil Azərbaycanın silahlı qüvvələrinin formalaşmasına sərf etmişdilər. Ordumuz ağır və çətin illərdə yaranmışdır. Onun əsasının qoyulmasında 1971-ci ildə Cəmşid Naxçıvanski adına hərbi liseyin yaradılması mühüm rol oynamışdır. Ümummilli Lider Heydər Əliyev yaxşı bilirdi ki,




Azərbaycanın gələcəyi müstəqil olacaq və o zaman ölkəyə peşəkar zabitlər lazım olacaq. Məhz bu uzaqgörənliklə Cəmşid Naxçıvanski liseyi təsis edildi. Bu liseydə minlərlə gənc hərbi təhsil aldı və Azərbaycanın gələcək zabit korpusunun formalaşmasında təməl rol oynadı.

Heydər Əliyev ikinci dəfə hakimiyyətə qayıtdıqdan sonra, ordu quruculuğunda ciddi islahatlara başladı. Ayrı-ayrı silahlı dəstələri ləğv edərək, vahid komandanlığa əsaslanan nizami ordu qurdu. Hərbi akademiyalar təsis edildi, hərbi qanunvericilik formalaşdırıldı, maddi-texniki baza möhkəmləndirildi və hərbi təhsil müəssisələrinin sayı artırıldı. ABŞ və Türkiyə başda olmaqla dünyanın müxtəlif ölkələrində Azərbaycan zabitləri hərbi təhsil almağa göndərildi".

"Prezident İlham Əliyev isə ordu quruculuğu sahəsində bu xətti uğurla davam etdirdi. Dövlət büdcəsindən hərbi xərclər əhəmiyyətli dərəcədə artırıldı. Ordumuz müasir standartlara cavab verən peşəkar orduya çevrildi. Əgər Ümummilli Lider nizami ordunun təməlini qoymuşdursa, cənab Prezident İlham Əliyev bu ordunu peşəkar orduya çevirdi.

Azərbaycan Ordusu 2016-cı ilin Aprel döyüşlərində, 2020-ci ilin 44 günlük Vətən müharibəsində və 2023-cü ilin birgünlük antiterror əməliyyatlarında öz sözünü dedi. Bu uğurlar sübut etdi ki, bu gün Azərbaycan ordusu dünyanın ən güclü orduları sırasındadır. Ən ağır döyüşlərdə qətiyyətli qələbə qazanaraq torpaqlarımızın azadlığını və ərazi bütövlüyümüzü təmin etdi. Ordumuzla qürur duyuruq. Ordumuz bizim fəxr və qürur mənbəyimizdir. Allah bütün şəhidlərimizə rəhmət eləsin. Silahlı Qüvvələrimiz Ali Baş Komandanın rəhbərliyi altında bir yumruq kimi birləşərək, vətənin müdafiəsini və təhlükəsizliyini hər zaman təmin edəcəkdir" - deyə o, əlavə edib.

***Söylü Ağazadə***

# Xankəndi yenidən qurulur və inkişaf edir

*3 saat 40 dəqiqəlik Xankəndi səfərim məndə xoş təəssüratlar yaratdı*

Bugün Azərbaycan dünyanın ən inkişaf edən dövlətlərdən birinə çevrilib. Xüsusilə də işğaldan azad edilən ərazilərdə ardıcıl olaraq tədbirlərin təşkil edilməsi, beynəlxalq konfransların keçirilməsi, dost, qardaş ölkələrin hökumət və dövlət başçılarının iştirakı ilə baş tutan görüşləri Azərbaycanın dünyada mənəvi-humanitar mərkəzlərdən birl olduğunu təsdiqləyir. 28 May 2025-ci il tarixində Azərbaycan, Türkiyə, Pakistan dövlət başçılarının Laçında baş tutan görüşü ölkəmizin gücünü, xalqlarımızın gələcəyə olan böyük inamı, bölgədə sülh və təhlükəsizliyin tam təmin olunduğunun dünyaya nümayişi idi. Təbii ki, uğurlar, böyük nailiyyətlər hələ qabaqdadır. Bizləri daha firavan, gözəl həyata gözləyir. Digər tərəfdən biz qalib ölkənin qürurlu vətəndaşlarıyıq. Ö dövlətin ki, iki yüz il ərzində daim xarici işğallarla üzləşməklə torpaq itkisinə, kütləvi insan ölümlərinə məruz qalmışıq, yüzlərlə şəhər və kəndimiz işğallar nəticəsində yer üzündən silinib, yaşı min illər olan tarixi, memarlıq abidələrimiz məhv edilib, məscidlərimiz, ibadət ocaqlarımız, ziyarətgahlarımız vandal hücumları nəticəsində dağıdılıb. Təkcə 30 illik erməni işğalı zamanı on minlərlə tarixi abidələrimiz, memarlıq nümunələrimiz, pirlər, ziyarətgahlar darmadağın edilib. Ümumilikdə iki əsr ərzində erməni terror maşınının vəhşiliyi nəticəsində iki milyondan çox azərbaycanlı öldürülmüş, minlərlə şəhər, kənd və qəsəbə məhv edilərək, yer üzündən silinib. Təəssüflər olsun ki, bu kimi ağrılı-acılı bəlalar, yalın azərbaycanlılara qarşı deyil, həm də müxtəlif qitələrdə yaşayan digər müsəlmanlara qarşı da həyata keçirilib. Ancaq Azərbaycan başqa xalqlardan fərqli olaraq daim ədalətin bərpası uğrunda mübarizə aparıb. Bu yolda çoxsaylı insan itkiləri verib, mənəvi, psixoloji zərərlər görüb, ancaq hədəfinə çatmaq uğrunda apardığı mübarizə yolundan dönməyib, susmayıb və ruhdan da düşməyib. Nəhayət o gün yetişdi və xalq öz liderinin müdrik siyasəti, sərkərdəlik məharəti nəticəsində öz arzusuna və istəyinə çatdı. 2020-ci il sentyabrın 27-də başlayan və 44 gün çəkən Vətən Müharibəsi ilə Azərbaycan öz ərazi bütövlüyünü və suverenliyini bərpa etdi. 2023-cü il sentyabrın 19-da başlayan və 23 saat 44 dəqiqə çəkən antiterror əməliyyatları ilə Qarabağda kök salan terrorçu hərbi birləşmələr tamamilə məhv edildi və terrorçuların əsas başçıları həbs olunaraq istintaq orqanlarına təhvil verildilər.













## Qarabağın "Çin səddi" adlandırılan Əsgəran qalası

İşğaldan azad edilən ərazilərimiz yenidən qurulur. Ermənilərin viran qoyduğu tarixi abidələr, memarlıq nümunələri bərpa və təmir işlərindən sonra öz əvvəlki görkəminə qaytarılır. Belə erməni vandalizminin qurbanı olan tarixi tikililərdən bir də 1751-ci il də Qarabağ xanı Pənahəli xanın göstərişi ilə inşa olunan və Qarabağın "Çin səddi" adlandırılan Əsgəran qalasıdır. Erməni vəhşiləri işğal dövründə Əsgəran qalasını özününküləşdirməyə cəhd etmiş və bu məqsədlə tarixi abidənin görkəminə müxtəlif anormal uydurma cızma-qaralar etmişlər. 2023-cü il sentyabrın 19-20-də Azərbaycan Ordusunun Qarabağda həyata keçirdiyi lokal xarakterli antiterror tədbirlərindən sonra Əsgəran qalası terrorçu toplumdan azad edilmişdir. Qala azadlığına qovuşduqdan dərhal sonra tədqiqatçıların, memarların iştirakı ilə yenidən əvvəlki vəziyyətinə gətirilmişdir. Qalaya nəzər yetirərkən heyran qalırsan. Bu baxımdan istər yerli, istərsə də xarici turistlər Əsgəran qalasını ziyarət edirlər. Həyat elə gətirdi ki, Qurban bayramı tətilindən istifadə edərək qalanı mən də ziyarət etmək şansını qazandım. Ulularımızdan bizə miras qalan qalaya baxmaqdan doymadım. Əlimlə qalanın divarlarını sığalladım, qalanın üstünə çıxıb, qürurla və fəxarət hisi ilə ətrafı seyr etdim. Hər kəsin eşidə biləcəyi səslə hayqırdım: Allahım, torpaqlarımızın azadlığı uğrunda döyüşlərdə canlarını qurban vermiş şəhidlərimizə rəhmət elə! Allahım, qazilərimizə cansağlığı nəsib elə! Allahım, bizə müdrik siyasəti, diplomatik bacarığı, möhtəşəm Sərkərdəlik məharəti ilə qələbə bəxş edən Ali Baş Komandan, Prezidentimiz İlham Əliyevi qoru!

## Xocalı əvvəlki yaşayışını bərpa edir

"Böyük Qayıdış" Proqramı çərçivəsində yenidən qurulan şəhər və kəndlərimizdən biri də Xocalı şəhəridir. Şəhər səliqə ilə tikilən hündür mərtəbəli binaları, həyət evləri ilə göz oxşayır. Küçələrarası yolların kənarlarında əkilən ağaclar, qızılgül kolları, yeni salınan parklar bu şəhərin gözəlliyinə yeni rəng qatır. Artıq şəhər öz əvvəlki yaşayışını bərpa etməkdədir. 2024-cü 28 May Dövlət Müstəqilliyi günü Xocalıda 20 ailə məskunlaşdırılıb. Ali Baş Komandan, Prezident İlham Əliyev və Birinci xanım Mehriban Əliyeva Xocalıda dövlət tərəfindən tikilən ilk yaşayış kompleksinin açılışında iştirak ediblər və şəhərə ilk köçən sakinlərlə görüşüblər. Prezident İlham Əliyev Xocalı sakinlərini öz ata-baba yurdlarına qayıtmaları münasibətilə təbrik edib və qayıdışın Azərbaycanın müstəqilliyinin 106-cı ildönümünə təsadüf etm?sinin simvolik məna daşıdığını bildirib: "Azərbaycan xalqı əmin olmalıdır ki, xalqımızın başına bir daha belə faciəvi hadisələr gəlməyəcək".

Məlum cinayət faktıdır ki, Xocalı 1992-ci il fevralın 26-da Ermənistan silahlı qüvvələri tərəfindən işğal edilib. Ermənistanın dövlət olaraq törətdiyi bu faciədə 106 qadın, 63 uşaq və 70 yaşlı insan olmaqla 613 nəfər qətlə yetirildi, 1275 sakin girov götürüldü, 150 nəfərin taleyi isə bu günədək naməlum qalıb. Şəhər yerlə-yeksan edildi. Həmin faciəvi gecə zamanı 487 nəfər Xocalı sakini ciddi şəkildə şikəst edildi və onlardan 76 nəfəri uşaqlardan ibarət idi.

Ardı Səh. 6

# Xankəndi yenidən qurulur və inkişaf edir

## 3 saat 40 dəqiqəlik Xankəndi səfərim məndə xoş təəssüratlar yaratdı



Əvvəli səh. 5

8 ailə tamamilə məhv edildi, 25 uşaq hər iki valideynini və 130 uşaq isə bir valideynini itirdi, 56 nəfəri xüsusi qəd-darlıqla - diri-diri yandırılaraq, başının dərisi soyularaq, boynu vurularaq, gözləri çıxarılaraq, hamilə qadınların isə qarın boşluğuna süngü ilə vurularaq öldürüldü. Xocalı soyqırımını Bosniya və Herseqovina, Kolumbiya, Çex Respublikası, Honduras, İordaniya, Meksika, Pakistan, Panama, Peru, Sudan, Cibuti, Qvatemala, Paraqvay, Sloveniya, Şotlandiya, İndoneziya və Əfqanıstanın qanunverici orqanları tərəfindən müvafiq parlament qətnamələri qəbul edib. Xocalı soyqırımı ABŞ-ın 40-dan çox ştatının qanunvericilik qurumları və qubernator proklamasiyaları səviyyəsində tanınıb. 2013-cü ilin fevral ayında Qahirədə keçirilən İslam Əməkdaşlıq Təşkilatının Zirvə Konfransının 12-ci sessiyasında qəbul olunan Yekun Kommünikedə üzv dövlətlər Xocalı soyqırımının tanınması istiqamətində zəruri səylər göstərməyə çağırıblar. Avropa İnsan Hüquqları Məhkəməsi 22 aprel 2010-cu il tarixli qərarında Xocalının azərbaycanlılardan ibarət mülki əhalisinin qırılmasını ”müharibə cinayətləri və ya insanlığa qarşı cinayətlər kimi qiymətləndirilə bilən xüsusilə ağır əməllər” kimi müəyyən edib. 2023-cü il sentyabrın 19-da Azərbaycan ordusunun Qarabağda başlatdığı antiterror əməliyyatı nəticəsində Xocalı terrorçulardan təmizlənib və azadlığına qovuşub.



### Xankəndi bölgənin mərkəzinə çevrilir

Əsgəran və Xocalıdan sonra yolumuz Xankəndi şəhəri olur. Açığı adını çoxsaylı məqalələrimdə yazdım, fikirlərimi TV verilişlərdə çəkdiyim Xankəndi şəhərinə ilk səfərim idi. İlk görüşümüzdə bu ecazkar şəhər məni özünə valeh etdi. Həqiqətən də xanlara layiq şəhər salınıb. Doğrudan da bu şəhər ulularımızın çox böyük ustalıqla tikib, bizlərə miras qoyduğu Xanın Kəndidir. Şəhər tam şəkildə yaşıl örtüyə bürünüb. Gövdəli yaşıl ağaclar, səliqə ilə salınmış parklar, beş mərtəbələrdən hündür olmayan yaşayış binaları, geniş küçələr və küçələrin kənarlarında əkilən gül kolları insanı heyran qoyur. İnsanlarla söhbət əsnasında məlum oldu ki, yeni layihələrin icrası ilə şəhər indikindən də gözəl və səliqəli olacaq. Artıq bir ilə yaxındır ki, Xankəndidə dövlət binalarında və otellərdə malyar işi ilə məşğul olan Musa Laliyev şirin söhbətimiz bir neçə dəqiqə çəkdi. M.Laliyev bildirdi ki, şəhərə işləməyə Mingəçevirdən gəlib: ”Mingəçevirlə Xankəndinin oxşar cəhətlər var. Xankəndi də Minkəçevir kimi iri, hündür ağaclarla zəngindir. Çox vaxtı hər iki şəhərin küçələrinin eyni olduğunu düşünürəm. Çünki hər iki şəhərin küçələri geniş və səliqəlidir”.

M.Laliyev deyir ki, qalıb, daimi olaraq Xankəndidə yaşamaq istəyir: ”Ailəm Mingəçevirdədir, özüm isə burada işləyir və yaşayıram. Aylıq maaşım pis deyil. Gündəlik yeməyim və yatmağım təmin olunur və aylıq 1500 manat maaş da alıram. Buna görə dövlətimə, Prezidentimə təşəkkür edirəm”. Söhbətimiz əsnasında M.Laliyev bildirir ki, şəhərdə 60-a yaxın erməni yaşayır: ”Onlara dəyib-dolaşan yoxdur. Biz bir millət olaraq böyüklüyümüz və xeyirxahlığımız burdan da görünür. Ermənilər birinci Qarabağ müharibəsi dövründə bizim millətə qarşı vəhşiliklər törətdilər. Bir kənd və qəsəbədə, şəhərdə bir azərbaycanlı qoymadılar, ya öldürdülər, ya da qovdular. Bizim millət, dövlətimiz ermənilərin nümayəndələrinə toxunmur, əksinə onların yaşamasına hər cür şəraitlər yaradır”.

Xankəndidə olarkən öyrəndim ki, şəhərdə əhalinin məşğulluğunun təmin olunması üçün yeni-yeni iş yerləri yaradılır, fabriklər tikilir. Diqqəti isə daha çox dönərxanalar, kafelər, restoranlar çəkir. Bakının müxtəlif yerlərində ”Seyidin dönəri” dönərxanasını görən də az da olsa təəccübləndim. Düşündüm ki, yəqin sahibkar bu adla özünə ”klyent” toplamağa çalışır. Yaxınlaşıb sual edincə, Elnur adlı dönərçi ” xeyir biz addan istifadə etmirik, həqiqətən də bu dönərxana Azərbaycanın hər yerində rast gəlinən və bir şirkətə aid olan dönərxanadır, ”Bakıdakı Seyidin dönəri” ilə Xankəndidəki ”Seyidin dönəri”ndə” bişirilən dönər arasında fərq varmı” sualımıza dönərçi Elnur ”var” deyə qısa cavab verir. Əlavə edir ki, bu ətrafda yetişən heyvanların ətləri daha dalı olur və bu səbəbdən də Şuşadan, Xocalıdan, Əsgərandan insanlar bura gəlib, dönər sifarişləri edirlər.

Xankəndidə gecələmək üçün otellər çox baha olduğu üçün Şuşaya ziyarət edib, Bakıya qayıtmağa tələsdim. Şuşada bir neçə dəfə olduğum üçün, daha çox yeni tikililərlə maraqlandım. İlk öncə Aşağı Gövhər Ağa məscidinə gedib, namaz qıldım, şəhidlərimizə Allahdan rəhmət diləyib, qazilərimizə can sağlığı arzuladım, təbii olaraq özüm üçün də duallar etdim. Öyrəndim ki, şəhərdə yolların salınması başa çatdırılıb, işıq, qaz, su infrasturukturu tam şəkildə bərpa olunub, ”Çıdır düzünü”, ”Şuşa qalasını” və digər tarix yerləri ziyarət etdim. Bakıya qayıdarkən bir sual məni düşündürdü: ”Görən Şuşa gözəldir, yoxsa Xankəndi?”. Sual ətrafında çox fikirləşməli olmadın: ”Azərbaycanın hər yeri gözəldir”.

**İLHAM ƏLİYEV**

# Milli Qurtuluş Günü Azərbaycan dövlətçiliyinin xilası və siyasi sabitliyin başlanğıcıdır

***Azərbaycan xalqının çoxəsrlik tarixində elə günlər var ki, taleyüklü qərarların qəbul olunduğu, dövlətin, xalqın gələcəyinin dəyişdiyi məqamları ifadə edir. 15 iyun - Milli Qurtuluş Günü məhz bu qəbildəndir. Bu tarix xalqın öz liderinə arxalanaraq dövlət müstəqilliyini, ictimai sabitliyini və gələcək rifahını xilas etməsinin, Azərbaycan dövlətinin uçurumun kənarından geri qaytarılmasının simvoludur. Bu gün həm də xalqın iradəsinin, liderlə milli həmrəyliyin, siyasi uzaqgörənliyin qələbəsidir.***

1991-ci ildə Azərbaycan müstəqilliyini elan etsə də, bu müstəqillik faktiki olaraq sabit və funksional dövlət idarəçiliyi ilə müşayiət olunmadı. Ölkə daxilində xaos, anarxiya, silahlı dəstələrin meydan suladığı bir mühit yaranmışdı. Qarabağ müharibəsi özünün ən gərgin mərhələsinə daxil olmuşdu. Azərbaycan həm cəbhədə, həm də daxildə çox ciddi təhdidlər və parçalanmalarla qarşı-qarşıya qalmışdı. 1992-ci ildə AXC-Müsavat hakimiyyəti xalqın ümidlərinə cavab vermədi, əksinə, idarəçilikdəki səriştəsizlik ölkəni böhrandan böhrana sürüklədi. Müxtəlif bölgələrdə separatizm meylləri baş qaldırır, Gəncə hadisələri ölkənin vətəndaş müharibəsinin astanasında olunduğunu göstərirdi. 1993-cü ilin yazında ölkənin gələcəyi ilə bağlı ümidsizlik pik nöqtəyə çatmışdı. Prezident Əbülfəz Elçibəyin faktiki olaraq siyasi arenadan çəkilməsi və Bakını tərk etməsi nəticəsində siyasi böhran yaranmışdı. Belə ağır bir məqamda xalqın ümidi yalnız bir şəxsə - siyasi uzaqgörənliyi və idarəetmə təcrübəsi ilə tanınan Heydər Əliyevə yönəldi. 1993-cü ilin iyunun 9-da xalqın təkidli tələbi ilə Bakıya dəvət edilən Heydər Əliyev 15 iyunda Azərbaycan Respublikası Ali Sovetinin sədri seçildi. Bu hadisə ölkə tarixində dönüş nöqtəsi oldu.

Heydər Əliyev hakimiyyətə gələr-gəlməz birinci növbədə sabitliyin təmin edilməsini prioritet seçdi. Müxtəlif regionlarda separatçı meyllər yatırıldı, silahlı dəstələr tərk-silah edildi, dövlət strukturları yenidən formalaşdırıldı. Onun hakimiyyətə qayıdışı ilə ictimai-siyasi xaos mərhələli şəkildə aradan qaldırıldı. Dövlətin dayanıqlı təməllər üzərində yenidən qurulması prosesi başlandı. Heydər Əliyevin 1993-cü ildə hakimiyyətə qayıdışı təkcə siyasi liderin dönüşü deyildi. Bu Azərbaycanın dövlətçiliyinin bərpası idi. Əgər həmin vaxt bu dönüş olmasaydı, bu gün biz müstəqil dövlətimizdən danışa bilməzdik.



*Namiq Əhmədov*
*YAP Xəzər rayon təşkilatının sədri*

Ulu Öndər Heydər Əliyevin rəhbərliyi altında Azərbaycanın gələcək inkişaf strategiyası müəyyən olundu. 1994-cü ildə ”Əsrin müqaviləsi” adlandırılan neft kontraktı imzalandı və bu, Azərbaycanın beynəlxalq enerji sisteminə inteqrasiyasının əsasını qoydu. Xarici sərmayələr cəlb olundu, müstəqil iqtisadi siyasət formalaşdı. Məhz həmin müqavilələrin nəticəsi olaraq bu gün Bakı-Tbilisi-Ceyhan, Bakı-Tbilisi-Ərzurum kimi strateji enerji layihələri reallaşıb.

Siyasi sabitliyin təmin olunması fonunda hüquqi və sosial islahatlara da start verildi. 1995-ci ildə ilk Konstitusiyanın qəbul edilməsi, parlamentin formalaşması, hüquqi dövlətin qurulması istiqamətində atılmış mühüm addımlar idi. Həmin dövrdən etibarən Azərbaycan dövləti təkcə müstəqil dövlət olaraq yox, həm də beynəlxalq hüququn subyekti kimi formalaşmağa başladı.

Qurtuluşdan sonrakı mərhələdə milli ordu quruculuğu gücləndirildi. Azərbaycanın müstəqil ordusu formalaşdı, hərbi hissələr strukturlaşdırıldı, müdafiə sənayesi təşkili istiqamətində ilk addımlar atıldı. Xarici siyasətdə balanslı mövqe tutuldu, həm Qərb, həm də Rusiya və İslam dünyası ilə münasibətlər sistemli şəkildə inkişaf etdirildi. Azərbaycanın beynəlxalq nüfuzu artdı, bir sıra mühüm beynəlxalq təşkilatlara üzv oldu.

Xalqın Heydər Əliyevə etimadı 1993-cü ilin oktyabrında keçirilən prezident seçkilərində əks olundu. Xalq ona yüksək səs faizilə etimad göstərdi. Bu həm də Qurtuluş Günü ilə başlayan dönüşün davamlılığının təminatı oldu. Heydər Əliyev xalqa verdiyi bütün vədləri bir-bir yerinə yetirdi. Sabitlik yaratdı, iqtisadiyyatı dirçəltdi, dövlətçiliyi qorudu.

Bugünkü reallıqlar göstərir ki, 15 iyunda atılan siyasi və ideoloji təməllər zamanla Azərbaycan dövlətinin müstəqilliyinin ən möhkəm sütunlarına çevrilmişdir. Heydər Əliyevin başladığı qurtuluş missiyası Prezident İlham Əliyevin rəhbərliyi ilə təkcə davam etdirilmədi, həm də yeni zirvələrə yüksəldi. Bu gün Azərbaycan təkcə regionda deyil, beynəlxalq miqyasda söz sahibi olan, suveren qərarlar qəbul edən, güclü iqtisadi və hərbi potensiala malik olan bir dövlətdir.

2020-ci ilin payızında Müzəffər Ali Baş Komandan İlham Əliyevin rəhbərliyi ilə rəşadətli Azərbaycan Ordusu 44 gün ərzində Ermənistanın işğalçı qüvvələrinə sarsıdıcı zərbələr endirərək, 30 ilə yaxın düşmən tapdağında qalmış torpaqlarımızı azad etdi. Bu, təkcə ölkəmizin ərazi bütövlüyünün bərpası deyil, həm də xalqın milli ləyaqətinin, tarixi ədalətin bərpası idi. 2023-cü ilin sentyabrında həyata keçirilən lokal antiterror tədbirləri nəticəsində Azərbaycan Respublikası öz suverenliyini Xankəndi də daxil olmaqla bütün Qarabağ ərazisində tam bərpa etdi. Ermənistanın qondarma rejimi tamamilə ləğv edildi. Bu gün Azərbaycan dövləti sülh və quruculuqla dünyaya nümunə göstərir. Azad edilmiş torpaqlarda nəhəng bərpa və yenidənqurma işləri aparılır. Füzuli, Laçın, Şuşa, Zəngilan, Ağdam kimi şəhərlərdə yeni aeroportlar, yollar, elektrik stansiyaları, məktəblər, xəstəxanalar tikilir. ”Böyük Qayıdış” proqramı çərçivəsində artıq minlərlə insan öz doğma yurduna dönüb. Bu dövlətin və xalqın öz tarixini necə inamla yazdığının bariz sübutudur. Prezident cənab İlham Əliyev dəfələrlə vurğulayıb ki, Qurtuluşdan başlanan yol bizi Zəfərə gətirdi. O bildirib: ”Əgər 1993-cü ildə Azərbaycan vətəndaşları Heydər Əliyevi dəvət etməsəydilər, bu gün biz nə azad edilmiş torpaqlardan, nə də suverenlikdən danışa bilərdik. Qurtuluş olmasaydı, Zəfər də olmazdı.” Bu strateji yanaşma Azərbaycan tarixinin bütöv və mənalı şəkildə bir sistem kimi formalaşdığını göstərir.

Bu gün Azərbaycan dövləti öz siyasi kursunu tam müstəqil şəkildə müəyyən edir. Hərbi gücü ilə özünü müdafiə edə bilir, enerji layihələri ilə regionun iqtisadi dinamikasını müəyyən edir, beynəlxalq təşkilatlarda milli maraqlara uyğun mövqedən çıxış edir. Bütün bunlar suverenlik anlayışının real məzmununu təşkil edir. Suverenlik bu gün bizim yalnız hüququmuz deyil, həm də reallığımız, siyasi və hərbi gücümüzün nəticəsidir. Milli Qurtuluş Günü bu reallığın başlanğıc nöqtəsidir. Bu tarix bir dövlətin öz varlığını qorumaq üçün necə səfərbər olduğunu, bir liderin xalqla birlikdə hansı möcüzələrə imza ata biləcəyini nümayiş etdirdi.

15 iyun təkcə siyasi liderin qayıdışı deyil, eyni zamanda milli yaddaşın və birliyin zirvəyə qalxdığı gündür. Bu gün xalqın dövlətə inamının, dövlətin xalqla bir olmasının rəmzidir. Hər bir azərbaycanlının yaddaşında 15 iyun qurtuluş, sabitlik və gələcəyə inamın başlanğıcı kimi əbədiləşib. Bu gün biz məhz 15 iyunun töhfələrini yaşayırıq: güclü ordu, inkişaf etmiş iqtisadiyyat, nüfuzlu beynəlxalq mövqe, işğaldan azad olunmuş ərazilər, quruculuq və bərpa işləri. Bütün bunların təməli 1993-cü ilin iyununda - xalqla liderin yenidən birləşdiyi gündə qoyulub. Bu səbəbdən 15 iyun - Milli Qurtuluş Günü təkcə keçmişə hörmət deyil, həm də gələcək nəsillərə bir məsuliyyət çağırışıdır. Bu gün bizi sabahın güclü, suveren və firavan Azərbaycanı üçün daha məsuliyyətli və iradəli olmağa səsləyir.

# Dünya tibb elminə töhfələr vermiş böyük akademik

## Dövlət başçısının Sərəncamı ilə akademik Mustafa Topçubaşovun 130 illiyi qeyd ediləcək

***Azərbaycan tibb elminə mühüm nailiyyətlər qazandıran, tibb təhsili və səhiyyə sisteminin müasir əsaslar üzərində qurulması işinə misilsiz töhfələr verən Mustafa Topçubaşov respublikada cərrahlıq elmi məktəbinin banilərindəndir. Görkəmli alim 200 elmi əsərin, 8 monoqrafiyanın, çoxlu sayda elmi topluların, Azərbaycan dilində 110 çap vərəqi həcmində 5 cildlik cərrahlığa dair dərsliyin müəllifidir. 62 illik əmək fəaliyyəti dövründə 100 minə yaxın uğurlu cərrahiyyə əməliyyatı aparıb. Gərgin elmi və praktik fəaliyyətlə yanaşı, tibb kadrlarının hazırlanması sahəsində də böyük işlər görüb, rəhbərliyi ilə 35 nəfər namizədlik və doktorluq dissertasiyası müdafiə edib.***



Qərbi Azərbaycanın İrəvan mahalının Göykümbət kəndində əsilli-köklü nəsillərindən birinin ailəsində dünyaya göz açan görkəmli cərrah-alim, ictimai və dövlət xadimi Mustafa bəy Topçubaşov 17 avqust 1895-ci ildə dünyaya göz açıb. Akademik Mustafa bəy Topçubaşov qədim İrəvanın əsilli-köklü nəsillərindən birinin nümayəndəsi idi. Dünyaya göz açdığı Göykümbət kəndi elə Topçuyabaşovların ata-baba malikanəsi imiş. Onların İrəvan şəhərində də mülkü olub. Atası Ağabəy, anası Fatimə xanım, Mustafa və üç qardaşı burada yaşayıblar. Ailənin ikinci oğlu Mustafa tanınmış Azərbaycan rəssamı Mirzə Qədim İrəvaninin nəvəsi Mirzə Rza Qədimovun açdığı ibtidai məktəbdə oxuyub. Belə bir ziyalının - "Akademik Mustafa Topçubaşovun 130 illiyinin qeyd edilməsi haqqında" Azərbaycan Prezidenti İlham Əliyev Sərəncam imzalayıb. Sərəncama əsasən, Azərbaycan Milli Elmlər Akademiyası Azərbaycan Respublikasının Səhiyyə Nazirliyi ilə birlikdə akademik Mustafa Topçubaşovun 130 illiyinə dair tədbirlər planı hazırlayıb həyata keçirəcək. Nazirlər Kabinetinə bu Sərəncamdan irəli gələn məsələləri həll etmək tapşırılıb.

Sərəncamda qeyd edilib ki, 2025-ci ilin avqust ayında Azərbaycan Respublikası Elmlər Akademiyasının təsisçilərindən biri, görkəmli alim və tanınmış ictimai xadim, tibb elmləri doktoru, SSRİ Tibb Elmləri Akademiyasının həqiqi üzvü, SSRİ Dövlət mükafatı laureatı, Əməkdar elm xadimi, akademik Mustafa Ağabəy oğlu Topçubaşovun anadan olmasının 130 ili tamam olur.

### BEYNƏLXALQ MİQYASDA AZƏRBAYCAN CƏRRAHİYYƏSİNİ LAYİQİNCƏ TƏMSİL EDƏN AKADEMİK

Akademik Mustafa Topçubaşov çoxşaxəli və dolğun fəaliyyəti ilə ziyalılığın parlaq nümunəsini yaratmış böyük nüfuza malik şəxsiyyətdir. O. Təbabətin müxtəlif sahələri üzrə müalicə texnologiyalarının və cərrahi problemlərin kompleks şəkildə öyrənilməsi yenilikçi alimin fundamental araşdırmalarının başlıca istiqamətlərini təşkil etmişdir. Praktiki cərrahiyyədə geniş yayılmış orijinal müalicə üsullarının tətbiqi və beynəlxalq miqyasda Azərbaycan cərrahiyyəsinin layiqincə təmsil olunması Mustafa Topçubaşovun adı ilə sıx bağlıdır.

Azərbaycan cərrahlıq elmi məktəbinin banilərindən biri, Azərbaycan SSR EA akademiki, Bolqarıstan Xalq Respublikası EA-nın müxbir üzvü, SSRİ Tibb Elmləri Akademiyasının akademiki, "Stalin" mükafatı laureatı, Sosialist Əməyi Qəhrəmanı, Azərbaycan SSR əməkdar elm xadimi, Azərbaycan SSR EA vitse-prezidenti, Azərbaycan SSR Ali Sovetinin sədri, Azərbaycan SSR Ali Sovetinin deputatı olan Mustafa Topçubaşov geniş və şaxəli yaradıcılığı ilə şöhrət tapmışdır. 1945-ci ildə yenidən yaradılmış Azərbaycan Elmlər Akademiyasına seçilmiş 15 görkəmli alimin biri Mustafa bəy Topçubaşov olub. O, 1947-1949-cu illərdə Eksperimental Tibb İnstitutuna rəhbərlik edib, 1951-ci ildən həyatının sonuna qədər Azərbaycan Elmlər Akademiyasının vitse-prezidenti vəzifəsində işləyib. 1949-cu ildə SSRİ Tibb Akademiyasının müxbir üzvü, 1960-cı ildə isə həqiqi üzvü seçilib. Tərcümeyi-halına nəzər salsaq görərik ki, o, 1904-cü ildə ibtidai təhsilini başa vurub gimnaziyaya daxil olub. 1914-cü ildə İrəvan kişi gimnaziyasını bitirib. Valideynlərinin onu uzağa buraxmağa ürəkləri gəlməsə də, Mustafa Kiyevə gedib və orada universitetin tibb fakültəsinə qəbul olunub. Üçüncü kursda oxuyanda Oktyabr inqilabı baş verib. O, bu dövrdə Kiyevdə qalaraq dövlət imtahanlarına hazırlaşıb.

1919-cu ildə təhsilini başa vuran gənc həkim Naxçıvan və Bakı xəstəxanalarında cərrahlıq edir. 1920-1923-cü illərdə ADU-nun (Azərbaycan Dövlət Universiteti) tibb fakültəsinin fakültə cərrahlığı klinikasında ordinator, 1923-1930-cu illərdə fakültə cərrahlığı klinikasında assisent işləmişdir. 1930-cu ildə "Malyariya mənşəli splenomeqaliyanın klinikası, patologiyası və cərrahi müalicəsi" mövzusunda doktorluq dissertasiyası müdafiə edir. Bu işin əhəmiyyətinə görə M.Topçubaşova professor adı verilir və o, Azərbaycan Tibb Universitetinin cərrahiyyə kafedrasının (indi - III cərrahi xəstəliklər kafedrası müdiri seçilir.

### DÜNYA ANESTEZİOLOGİYA ELMİ TARİXİNDƏ İLKƏ İMZA ATAN ALİM

Topçubaşov 1937-ci ildə dünya anesteziologiya elmi tarixində ilk dəfə olaraq orijinal keyitmə üsulunu - injeksion efir-yağ narkozunu - analgeziya üsulunu kəşf edir. Bu metod sadəliyinə, hazırlanma və tətbiq texnikasının asanlığına, inhalyasion narkoz zamanı rast gələnən bir sıra mənfi halların (dərin narkoz yuxusu, qanda narkotik maddələrin yüksək konsentrasiyada toplanması və s.) aradan qaldırılmasına imkan verdiyinə görə geniş tətbiq edilməyə başlandı. Efir-yağ qarışığı inyeksiyaları həm də öddaşı xəstəliyinin sancıları, travmatik şok, tetanus, qıcolma hallarında, müalicə və doğuş zamanı ağrısızlaşdırma vasitəsi kimi istifadə edilirdi. 1945-ci ildə SSRİ Xalq Səhiyyə Komissarlığı Elmi Tibbi Şurası tərəfindən Farmakologiya Komitəsinin iclasında efir-yağ qarışığının "Analgezin" adı altında istehsal edilməsinə icazə verilir.

Onunla bağlı xatirələrdə qeyd olunur ki, Məclislərin birində bəstəkar Üzeyir Hacıbəyov deyib:

- Əgər təbabəti musiqi kimi səsləndirmək mümkün olsaydı, bizim Mustafa bəy təbabət musiqisinin ən böyük bəstəkarlarından biri olardı.

Akademik Heydər Hüseynov ona etiraz edib:

- Təbabətin filosofu adı Mustafa bəyə daha çox yaraşır. Üzeyir bəy cavab verib:

- Məncə, təkliflərimizi birləşdirsək, bizim doktorumuz narazı qalmaz. Qoy Mustafa bəy "təbabətin filosofu və bəstəkarı" olsun.

### TƏXLİYƏ HOSPİTALLARININ YARADILMASININ İLK TƏŞƏBBÜSKARI

Topçubaşov müharibə illərində Azərbaycan Xalq Səhiyyə Komissarlığı Hərbi Xəstəxanalar İdarəsinin baş cərrahı vəzifəsində çalışıb. O, SSRİ-də ilk dəfə olaraq təxliyə hospitallarının yaradılmasının təşəbbüskarı olub və bu təklif hərbi cərrahlıq işinin təşkilində uğurla istifadə edilib.

Müharibədən sonra professor M. Topçubaşov 1945-1950 illərdə Azərbaycan SSR Səhiyyə Nazirliyinin baş cərrahı olmuşdur. 1945-ci ildə Azərbaycan SSR EA-nın həqiqi üzvü (akademik) seçilir. 1945-1948-ci illərdə Azərbaycan SSR EA Eksperimental Tibb İnstitutunda direktor vəzifəsində çalışır. Müxtəlif dövrlərdə iki dəfə (1951-1956 və 1969-1981) Azərbaycan SSR Elmlər Akademiyasının vitse-prezidenti vəzifəsini daşıyır. 1954-cü ildə özü işlədiyi kafedrada operasion-auditoriya təşkil edir.

### "ONUN ZİYALILIĞI TƏKCƏ ELMİNDƏ YOX, XASİYYƏTİNDƏ, DAVRANIŞINDA, İNSANLARA MÜNASİBƏTİNDƏ İDİ"

Ümummilli lider Heydər Əliyev Mustafa bəy Topçubaşovu həmişə yüksək qiymətləndirib, onun Azərbaycan xalqı qarşısındakı xidmətlərini və dünya təbabət elminə verdiyi töhfələri layiqincə dəyərləndirib. 1995-ci ildə M.Topçubaşovun 100 illik yubiley mərasimində çıxış edən ulu öndər Heydər Əliyev böyük təbibin şəxsiyyətini açıqlayan bir neçə məqamı xüsusi vurğulayıb: "Mustafa bəy Topçubaşov anadan ziyalı kimi doğulubdu. Onun ziyalılığı təkcə elmində yox, xasiyyətində, davranışında, insanlara münasibətində idi... Xatirimdədir, bir dəfə bir nəfər mənim yanıma gəlib dedi ki, Mustafa bəy Topçubaşov akademiyada özünü elə aparır ki, elə bil heç vitse-prezident deyildir. Mən dedim, nə olubdur ki? O dedi ki, Mustafa bəy Topçubaşov akademiyanın bufetində oturur, hamı ilə birlikdə yemək yeyir. Dedim, burada nə var ki?.. Demək, insanlar başqa cür də düşünürlər.

Bu, onun alicənablığının, ziyalılığının parlaq təzahürüdür. İnsanlar var ki, bir xırda vəzifə tutan kimi ya evində, ya da dövlət işində özlərinə xüsusi xidmət tələb edirlər... Lakin xalqına bu qədər xidmət etmiş adam, həmin o Elmlər Akademiyasının bünövrəsini qoyanlardan biri bu cür təvazökar həyat keçirirdi."

Mənbələrdə qeyd olunur ki, bədxahlar "fəaliyyət"lərindən əl çəkmirdilər. Respublika rəhbərinə dəfələrlə deyirdilər ki, Mustafa bəy Topçubaşov artıq qocalıb. Bəlkə o, istefaya getsin, yaxud kafedra müdirliyini başqa adama tapşırsın? Topçubaşov akademiyanın vitse-prezidenti olduğu zaman da respublika rəhbəri Heydər Əliyevə belə "təklif"lərlə müraciət edirdilər. Ulu öndər isə bələlərinə qətiyyətlə cavab verib: "Dediyiniz o qanun-qaydalar Mustafa bəy Topçubaşova aid deyil. O, elə bir insandır ki, o, elə bir fədakar adamdır ki, həyatının, yaşının son dəqiqəsinə qədər göstərdiyi fəaliyyət bizim üçün gərəkli və əhəmiyyətlidir".

Mustafa Topçubaşov dünya cərrahlarının öz praktikalarında indiyə qədər də istifadə etdiyi 160-dan çox elmi işin müəllifidir. 1981-ci il noyabrın 21-də vəfat edib. Bakı şəhərindəki Elmi-Tədqiqat Kliniki və Eksperimental Cərrahiyyə İnstitutuna onun adı verilib.

***Nəzakət ƏLƏDDİNQIZI***

# "Dövlət başçılarının rəhbərliyi Çin-Azərbaycan münasibətlərinin yüksəkkeyfiyyətli inkişafı üçün ən mühüm üstünlük və etibarlı təminatdır"



Çin Beynəlxalq Sivilizasiyalararası Dialoq Gününün bayram edilməsi fürsətindən istifadə edərək, iki ölkənin xalqlarının ünsiyyət vasitəsilə bir-birini daha yaxşı anlaması, onlar arasında dostluğun dərinləşdirilməsi və əlaqələrin möhkəmləndirilməsində yeni birgə səhifəsinin yazılması istiqamətində Azərbaycanla birlikdə humanitar əməkdaşlığı genişləndirməyə hazırdır.

AZƏRTAC xəbər verir ki, bu sözləri Çinin Azərbaycandakı səfiri Lu Mey ilk dəfə qeyd olunan Beynəlxalq Sivilizasiyalararası Dialoq Gününə həsr olunmuş brifinqdə deyib. Çinin səfiri əlavə edib: "Bu il aprelin 22-dən 24-dək Prezident İlham Əliyev Çinə dövlət səfərini uğurla həyata keçirib. Səfər zamanı Sədr Si Cinpin və Prezident İlham Əliyev hərtərəfli strateji tərəfdaşlığın qurulmasını birgə bəyan etdilər və bir çox sahələrdə əməkdaşlığın dərinləşdirilməsinə dair bir sıra mühüm razılaşmalar əldə etdilər. Bununla da Çin-Azərbaycan münasibətlərində yeni tarixi səhifə açıldı. Bu yaxınlarda mən Azərbaycanın yüksəkvəzifəli şəxsləri, eləcə də Çindən gələn rəsmi nümayəndə heyətləri, region və müəssisələrin nümayəndələri ilə də bir sıra görüşlər keçirmişəm. Biz iki ölkə arasında əlaqələrin inkişafını ətraflı müzakirə etdik. Əsas təəssüratım ondan ibarətdir ki, dövlət başçılarının rəhbərliyi Çin-Azərbaycan münasibətlərinin yüksəkkeyfiyyətli inkişafı üçün ən mühüm üstünlük və etibarlı təminatdır. Hazırda hər iki ölkənin müxtəlif qurumları və regionları iki lider arasında imzalanmış sazişləri fəal şəkildə həyata keçirir və bu, bütün sahələrdə əməkdaşlıqda yeni irəliləyişlərə səbəb olub".

# Universitet həyatı tələbələrin yaddaşında necə iz qoyub?

***Universitet həyatı hər bir gəncin həyatında iz buraxan, onu həm elmi, həm də insani cəhətdən formalaşdıran önəmli bir dövrdür. Bəziləri üçün bu illər sadəcə diplom əldə etmək üçün bir vasitədirsə, digərləri üçün öyrənmək, inkişaf etmək və özünü kəşf etmək yolunda atılan mühüm addımdır. Bəs məzunlar bu illəri necə xatırlayır? Universitet həyatı onların yaddaşında necə iz qoyub? SİA məzunlar arasında sorğu keçirib.***

**Tələbə Nahid Ağayev:** "Universitet həyatı mənim yaddaşımda çox maraqlı və dəyərli xatirələrlə qaldı. Təhsil aldığım sahə üzrə qazandığım bilik, bacarıq və nailiyyətlərlə yanaşı, bu illər ərzində yeni insanlarla tanış olaraq əhatə dairəmi genişləndirdim. Könüllü fəaliyyətlərdə, inkişaf proqramlarında və müxtəlif layihələrdə iştirak etməklə universitet həyatımı daha mənalı və zəngin keçirməyə çalışdım. Bu dövrdə qazandığım dostlar, tanıdığım fərqli insanlar və qarşılaşdığım yeni təcrübələr mənim üçün olduqca dəyərli oldu. Eyni zamanda peşəkar müəllimlərin və mütəxəssislərin dəstəyini hiss etmək, onların təcrübəsindən faydalanmaq mənim üçün böyük motivasiya idi.



Xüsusilə mentorların keçirdiyi təlimlərdə aktiv iştirak etməklə jurnalistika, media və PR sahələri ilə bağlı bir çox yeni məlumatlar əldə etdim. Bu təlimlər mənə həm nəzəri bilik, həm də praktik bacarıqlar qazandırdı. Bütün bu fəaliyyətlər mənim şəxsi və peşəkar inkişafıma ciddi töhfə verdi. Deyə bilərəm ki, universitet həyatı təkcə dərslərlə məhdudlaşmır. Bu, həm də özünü tapmaq, inkişaf etdirmək və həyatda daha inamla irəliləmək üçün bir fürsət dövrüdür. Bu illər mənim üçün həm öyrənmə, həm də böyümə mərhələsi oldu".

**Tələbə Zivər Hüseynova:** "Universitet həyəti mənim üçün bir ailə kimi idi. Müəllimlər sadəcə dərs deməklə kifayətlənmirdilər, həm də bizim problemlərimizə qulaq asır, məsləhət verirdilər. Xüsusilə fakültə dekanımız çox anlayışlı insan idi. Bəzən dərsdən daha çox onun həyati tövsiyələri yadımda qalır. Dörd il ərzində müəllimlərimiz bizə qarşı həm tələbkar, həm də qayğıkeş oldular. Elə günlər olub ki, yorğun və ümidsiz halda dərsə gəlmişəm, amma müəllimin bir sözü mənə ruh verib. Əlbəttə, çətinliklər də olub, amma insan harada sevgi və hörmət görürsə, orada olan çətinlikləri də qəbul edir.



Ən çox xoşuma gələn o idi ki, müəllimlər bizim fikrimizi dinləyirdilər. Səhv etdikdə tənqid edirdilər, amma aşağılamadan. Mən bu illər ərzində çox şey öyrəndim və buna görə universitet heyətinə minnətdaram. Məncə, insanın həyatında müəllimin rolu danılmazdır. Bu baxımdan bəxtim gətirdi deyə bilərəm".



**Tələbə Səbinə Zalova:** "Universitet həyatı mənim üçün çox dəyərli bir dövr olub. Həm çətin, həm maraqlı, həm də deyə bilərəm ki, ən çox şey öyrəndiyim illər idi. Yalnız dərslər baxımından yox, həyatın özünü də burada tanıdım. Özümü tapmağa çalışdığım, bəzən yorulduğum, bəzən nə istədiyimi anlamadığım zamanlar oldu. Amma bütün bu qarışıqlığın içində həmişə bir yol axtardım və bu yol məni özümə bir az da yaxınlaşdırdı.



Ən maraqlı anlar tələbə yoldaşlarımızla birlikdə keçirdiyimiz xatirələr idi. Xüsusilə imtahan ərəfəsində yaşadığımız həyəcan, gərginlik o anlarda çətin görünsə də, indi geriyə baxanda insanın üzündə təbəssüm yaradır. Müəllimlərlə olan münasibət, tədbirlər, dərsə gecikməmək üçün səhərlər qaçaraq universitetə getməyimiz, "qayıb yazmayın, gəlirik" deməyimiz - bütün bunlar artıq şirin bir xatirəyə çevrilib. İndi dönüb baxanda deyirəm ki, yaxşı ki, bu dövrləri yaşamışam. Universitet mənim üçün sadəcə bir təhsil ocağı deyil, həm də özümü tanıdığım, böyüdüyüm və formalaşdığım bir həyat məktəbi oldu".

**Tələbə Könül Əliməmmədova:** "Bu il mənim universitetdə sonuncu ilim olsa da, bu dörd il mənim üçün sadəcə təhsil illəri yox, həm də formalaşma, dəyişmə və böyümə dövrü oldu. Universitet həyəti mənim üçün dəyişən və inkişaf edən bir ailə ortamı yaratdı. Maraqlısı budur ki, bu illər ərzində üç fakültə dəyişmişəm. Buna baxmayaraq, hər bir fakültənin həyəti səmimi, istiqanlı və tələbəyönümlü insanlar idi. Onlar hər zaman problemlərimizə açıq, dinləməyə və həll etməyə hazır bir kollektiv kimi yadda qaldılar.



Xüsusilə ilk kollektivimdə, birinci kurs olmağımıza baxmayaraq, bizə bir ailə istiliyi hiss etdirirdilər. İmtahan prosesi, dərs yükü, adaptasiya dövrü - hər şeydə bizim yanımızda oldular. Hər hansı bir sualımız olanda, "burada bizi nə gözləyir, necə öyrənəcəyik, necə uyğunlaşacağıq?" kimi suallara açıq və səmimi şəkildə cavab verirdilər. Mənə görə, universitet həyatında ən böyük dəstək, məhz bu heyətin münasibəti idi.

Çox insan universitet həyatından danışanda dərsləri, imtahanları, dostluqları xatırlayır. Mən isə deyərdim ki, ilk növbədə universitet heyətinin bizə verdiyi motivasiya, inam və yolgöstəricilik unudulmazdır. Onların sayəsində universitet mənim üçün sadəcə bir təhsil müəssisəsi yox, həm də bir öyrənmə və özünü tapma məkanı oldu. Bu dörd il yaddaşımda həm çətin, həm də çox dəyərli xatirələrlə qaldı - və bu xatirələrin əsas qəhrəmanları məhz universitet heyəti idi".

**Tələbə Türkan Mirzəyeva:** "Universitetə qəbul olmaq mənim üçün sadəcə bir məqsəd deyil,



həm də böyük bir sınaq idi. Bu yola çıxarkən çox əziyyətlər çəkdim - yuxusuz gecələr, yorucu günlər, sonsuz təkrarlar  Amma heç dayanmadım. Nəhayət, Azərbaycan Dövlət Pedaqoji Universitetinin İbtidai təhsil fakültəsinə qəbul oldum. O an anladım ki, bu uğur zəhmətimin nəticəsidir və bu, mənim üçün böyük bir qürur idi.

Universitetin ilk günləri həyəcanlı və bir qədər qarışıq idi. Yeni mühit, tanımadığım insanlar, fərqli müəllimlər... Amma zamanla hər şey mənim üçün doğmalaşdı. Auditoriyalarda keçən müzakirələr, dərs aralarında gülüşlər, imtahan ərəfəsindəki gərgin anlar - bunların hamısı yaddaşımda silinməz izlər buraxıb.

Bu dörd il mənim üçün sadəcə təhsil dövrü olmadı. Burada həm də böyüdüm, dəyişdim, özümü tanıdım. Yeni dostlar qazandım, qərar verməyi, məsuliyyət daşımağı, müstəqil düşünməyi öyrəndim. Bəzən ailəmdən uzaqda olmaq çətin idi, amma onların dəstəyi ilə hər şeyin öhdəsindən gəldim.

Universitet həyatı mənə göstərdi ki, həyat dərsləri təkcə kitabdan yox, yaşanmış təcrübələrdən öyrənilir. Müəllimlərimizin səbir və sevgisi, bizə olan diqqətləri bu illəri daha da mənalı etdi. Onlar yalnız bilik verən deyil, həm də yol göstərən insanlar idi.

İndi düşünürəm ki, bu illərin ən dəyərli tərəfi qazandığım insanlar, yaşadığım təcrübələr və öyrəndiyim həyat dərsləri idi. Zaman sürətlə keçdi, amma geridə qalan xatirələr ömür boyu ürəyimdə qalacaq. Universitet mənim üçün sadəcə bir bina deyil - onu yaşadan insanlarla, xatirələrlə mənalı bir həyat mərhələsidir".

**Tələbə Səfurə Əhmədzadə:** "Universitet həyatı mənim üçün çox fərqli və dəyərli bir mərhələ olub. Hazırda Bakı Slavyan Universitetində 4-cü kurs tələbəsiyəm və bu illər ərzində yaşadıqlarım, öyrəndiklərim yaddaşıma dərin izlərlə həkk olunub.



Başlanğıcda düşünürdüm ki, universitet sadəcə dərs oxumaqdır. Amma zaman keçdikcə anladım ki, burada insan təkcə bilik deyil, həm də özünü, həyatı və gələcəyini tanımağa başlayır. Dərs prosesindən əlavə, hər gün universitetə gəlib-getmək, mühazirələrdə iştirak etmək, təqdimatlar hazırlamaq - bunların hər biri məndə məsuliyyət hissini daha da gücləndirdi.

Xüsusilə imtahan dövrləri heç vaxt yadımdan çıxmaz. O gərgin günlər, gecələrə qədər oxumaq, artan həyəcan... Bəzən çətin olsa da, bu proses mənə iradə və özümə güvənməyi öyrətdi. Hər dəfə imtahanı uğurla verdikdə "mən bunu bacardım" hissi mənim üçün böyük bir motivasiya mənbəyinə çevrilirdi.

Universitet illəri mənə yalnız akademik bilik deyil, həm də daxili zənginlik qazandırdı. Bəzən bir müəllimin söylədiyi sadə bir cümlə məni uzun müddət düşündürürdü. Hətta dərsdənkənar mövzularla maraqlanıb onları araşdırırdım - bu isə dünyagörüşümün formalaşmasında mühüm rol oynadı.

Əlbəttə, bu illər təkcə oxumaqla keçməyib. Universitet həyatı elə bir mərhələdir ki, insan həm yorulur, həm də bir növ rahatlıq tapır. Yorucu dərslərin, stressli imtahanların fonunda çox dəyərli, bəzən isə sadə görünsə də unudulmaz anlar olur. Bir dərsdən sonra universitetin həyətində oturub səssizcə düşünmək belə insanın ruhunu sakitləşdirə bilir.

Bu illər ərzində mən həm öyrəndim, həm də dəyişdim. Daha yetkin düşündüm, daha dərindən hiss etdim. Deyərdim ki, universitet həyatı sadəcə bir təhsil mərhələsi deyil, insanın həyatında dərin iz buraxan, formalaşdırıcı bir zamandır. Bu illəri hər zaman minnətdarlıq və sevgi ilə xatırlayacağam.

**Tələbə Zeynəb Qələndərli:** "Universitet həyatı mənim üçün həm çətin, həm də zəngin bir təcrübə oldu. Müəllimlik ixtisasını seçmək sadəcə peşə deyil, həm də böyük məsuliyyətdir. Burada keçirdiyim illər mənə yalnız dərs oxumağı deyil, insanlarla düzgün ünsiyyət qurmağı, səbirli olmağı və başqalarını dinləməyi öyrətdi. Müəllim olmaq üçün təkcə biliyə sahib olmaq kifayət deyil, həm də tələbələrə qarşı anlayışlı və qayğıkeş olmaq vacibdir.



Universitetdə müəllimlərimizin bizə verdiyi praktiki biliklər və həyat dərsləri bu sahədə uğurlu olmağıma kömək edir. İlk illərdə böyük həyəcan və qorxu ilə auditoriyaya girirdim, amma zamanla özümə inam qazandım. Hər imtahan, hər təqdimat məni daha da gücləndirdi. Müəllimlərin fədakarlığı və tələbələrə göstərdikləri diqqət məndə böyük hörmət yaratdı.

Tələbə yoldaşlarımla birlikdə keçirdiyimiz anlar isə həm gərgin, həm də unudulmaz oldu. Universitet həyatı mənə öyrətdi ki, səhvlərdən qorxmamaq və daim inkişaf etmək lazımdır. Burada qazandığım bilik və bacarıqları gələcəkdə tələbələrimlə paylaşmaq mənim üçün ən böyük hədəfdir. Hər gün yeni bir şey öyrənmək və bunu başqalarına ötürmək müəllimlik peşəsini daha da mənalı edir. Universitet mənim üçün həm təhsil, həm də şəxsi inkişaf yeri oldu. Bu illər sayəsində nəinki müəllim, həm də daha müdrik və məsuliyyətli insan oldum. İndi gələcəyə daha böyük ümidlə baxıram və müəllim kimi öz yolumu inamla davam etdirmək istəyirəm.

***Günel Rəşadqızı***

QURUMDAN AÇIQLAMA

# "Erkən müayinələr görmə qüsurları riskini azaldır"

"Texnologiyanın həyatımıza inteqrasiya olunması, xüsusilə də uşaqların planşet, telefon və kompüter kimi ekranlı cihazlara uzunmüddətli məruz qalması göz sağlamlığına zərər verən əsas risk faktorlarından birinə çevrilib. "Dijital dünya" istifadəsində artım, görmə qüsurlarının daha erkən yaşlarda və daha yüksək tezliklə müşahidə olunması, "dijital göz yorğunluğu" sindromu (göz əzələlərinin yorulması, qızartı, quru göz, bulanıq görmə, baş ağrısı və göz ətrafında ağrı) yaranması ilə nəticələnir. Gözdə yaranan bu problemlər göz xəstəliklərinin yaranmasının əsas səbəblərindəndir". Bu barədə SİA-ya İcbari Tibbi Sığorta üzrə Dövlət Agentliyindən bildirilib.

Agentlikdən bildirilib ki, uşaqlarda ekran asılılığı refraksiya qüsurlarının daha erkən yaşlarda müşahidə olunmasına gətirib çıxarır: "Refraksiya qüsurları gözün torlu qişasında təsvirin fokuslanmasının pozulması nəticəsində görmə itiliyinin zəifləməsi ilə xarakterizə olunan oftalmoloji xəstəliklər qrupudur.

Əsas refraksiya qüsurları miopiya (uzağı yaxşı görməmək), hipermetropiya (yaxını yaxşı görməmək) və astiqmatizmdir (bulanıq və qeyri-dəqiq görüntü). Bu xəstəliklərin hər biri ambliopiya (tənbəl göz) riskini artırır, əgər vaxtında aşkarlanmazsa, qalıcı görmə zəifliyinə gətirib çıxara bilər. Geniş yayılmış uzağı yaxşı görməmək problemi xüsusilə ekrana yaxın məsafədən baxmaq və



açıq havada az vaxt keçirmək səbəbindən yaranır.

Uşaqlıq dövrü görmə orqanının sürətlə inkişaf etdiyi önəmli dövrdür. Refraksiya pozğunluqları dünyada hər 4 uşaqdan birində müşahidə edilir və erkən aşkarlanmadıqda görmədə inkişaf geriliklərinə səbəb olur. Zəif görmə yalnız təhsil həyatına deyil, həm də uşağın sosial və emosional inkişafına da təsir göstərir.

Genetik faktorla yanaşı, uzunmüddət yaxın məsafəli oxuma, yazma, ekran istifadəsi, gözün akkomodativ əzələlərini yükləyərək görmə funksiyasının balansını poza bilər. Sadalanan bütün hallar "dijital göz yorğunluğu" sindromu və miopiyanın yaranmasına gətirib çıxara bilər.

Erkən müayinələr görmə qüsurları riskini azaldır. Müntəzəm müayinələrin 3-6 yaş aralığında aparılması tövsiyə olunur. İlk 6 ayda ilkin göz strukturlarının qiymətləndirilməsi, 3 yaşda görmə kəskinliyinin yoxlanılması, 5-6 yaşda isə məktəböncəsi görmə müayinələrinin və daha sonra hər il ümumi oftalmoloji müayinələrin edilməsi məsləhətdir.

Gün ərzində 20-20-20 qaydasına əməl etmək (hər 20 dəqiqədən bir, 20 fut (6 metr) uzağa 20 saniyə baxmaq), ən az 1-2 saat açıq havada gəzinti, ekranların göz səviyyəsindən bir qədər aşağıda yerləşməsi, ekran parıltısının azaldılması tövsiyə olunur. Nəticə etibarilə, uşaqlarda refraksiya pozğunluqları müasir həyat tərzi və texnologiya ilə sıx əlaqəlidir. Bu səbəbdən erkən diaqnoz və profilaktik tədbirlər uşaqların göz sağlamlığının qorunmasında mühüm önəm daşıyır. Uşaqlarda göz sağlamlığının qorunması üçün sistemli erkən diaqnoz, profilaktik tədbirlər, valideyn nəzarəti, ekran istifadəsi vaxtının məhdudlaşdırılması mühüm amillərdir.

Qeyd edək ki, icbari tibbi sığortanın Xidmətlər Zərfinə oftalmoloqun müayinəsi, göz müayinəsi paketi - vizometriya, aftorefraktometriya, eynək müayinəsi, göz təzyiqinin yoxlanılması, göz dibinin müayinəsi, keratatopoqrafiya, biometriya və digər müayinələr daxildir. Sözügedən müalicə metodu da icbari tibbi sığorta hesabına qarşılanır.

Xidmətlər Zərfi ilə təminata alınan sözügedən tibbi xidmətlərdən ixtisaslı həkim təyinatı ilə tibbi göstərişə əsasən TƏBİB-in tabeliyindəki dövlət tibb müəssisələri və Səhiyyə Nazirliyinin tabeliyindəki müvafiq elmi-tədqiqat institutlarında yararlanmaq mümkündür".

***Söylü Ağazadə***

# Aydınlarımızdan biri də Aydın Quliyevdir! - Əbülfət Mədətoğlu yazır

***Xasiyyətimdi...dostları düşünəndə özüm də bilmədən qapını döyən xatirələrin bir ucundan tutub yola çıxıram. Və düşünmürəm ki, bu yol harda bitəcək. Özüm özümdən baş götürüb gedirəm bu yolla. Nə məqsədimi, nə də hara getdiyimi demədən-bildirmədən dərələr-təpələr keçirəm. Dəmir çarıq geyinmiş dərvişlər kimi yolda yorulmaq, bezmək, ya da hardansa geri dönmək, peşmançılıq yaşamaq gəlmir ağlıma. Çünki xatirələr mənim təkcə dünənim deyil, həm də sabahıma körpüdür. Mən o körpüdən kimlərin keçəcəyini bilmirəm. Ancaq ümidliyəm ki, kimsə keçəcək o körpüdən. Çünki xatirələrimin həm şahidləri var, həm də iştirakçıları... Deməli, o körpü mütləq keçiləcək. Amma ona qədər***

Bəli, biz hər gün qarşılaşırıq, hər gün də sarılırıq bir-birimizə. Ona görə ki, bizim ötən əsrin 80-ci illərindən başlayan bir həyatımız, daha doğrusu, bir ömür payımız var. O ömür payının fəsillərini mən öz içimdə belə adlandırmışam: tələbəlik - bu mənim üçün yaz fəslidir. 90-cı illər - bu, ömrün yayıdır. 2000-ci illərin ilk onluğundan sonrakı zaman kəsiyi-artıq payızdır. Bizdən asılı olmadan gələn payız. Kimsə bu bölgüyə öz arşını ilə qıymət verib qınaya bilər. Bu, onların özəl haqqıdır. Lakin mənim üçün gerçək olan budur. Bizim tələbəlik illərimiz təkcə qanımızın coşğun dövrü deyildi, həm də ömrümüzün ümidli çağı idi. Hər birimiz ayrı-ayrılıqda cəmiyyətdə tutacağımız yeri xəyal etmişdik. Az qala o yerdə özümüzü artıq hiss edirdik. Lakin 90-cı illər dəyişdi hər şeyi. Təkcə bizlərin yox, bütün ölkənin həyatı dəyişdi. Gəncliyimiz meydanlarda, səngər-



lərdə, iş axtarışında, çörək sorağında, təbii ki, həm də sığınacaq aramaqda idi. Şəxsən mən vətəndə vətənsiz yaşayırdım. Beləcə davam edirdi ömrümüz. Ona görə də bir-birimizdən xəbər tutmaq, bir-birimizin hayına çatmaq, yanında olmaq yuxu kimi gəlirdi adama. Yuxular isə həmişə çin olmur axı

Həyat bizim hər birimizi öz axarına alıb atmışdı müxtəlif səmtlərə. Mən Qarabağsız qaldığım üçün daha ağırlı, daha ümidsiz bir durumda idim. Ona görə də özümə çəkilib, necə deyərlər, gözümü özümə yığıb yazı-pozu ilə təsəlli tapmağa çalışırdım. Bax onda yenidən qarşılaşdıq tələbəlik illərimin şahidlərindən və həm də saygılı təmsilçilərindən biri olan Aydın bəylə.

"Azərbaycan" nəşriyyatında üzüzə gəldik, bir anlıq baxışdıq. Sonra sıxdıq bir-birimizin əlini. Elə bil ki, dövlət üniversitetinin yataqxanasında görüşürdük. Və 80-ci ilin tələbələri idik

Mən Qarabağda doğulmuşam, Aydın bəy Naxçıvanda. Amma hər ikimiz eyni yanğı ilə, eyni təlaşla həm Qarabağda, həm də Naxçıvanda ermənilərin törətdiyi cinayətlərdən üzülür, onların cavabının veriləcəyi anı gözləyirdik. Bu səbəbdən də hər görüşümüzün mövzusu yalnız Vətən idi, Torpaq idi. Və bir də təbii ki, tələbəlik xatirələrimiz İndinin özündə də o xatirələrin orbitindən, əhatə dairəsindən çıxa bilmirik. Mütləq uşaqlardan kiminsə xatırlayırıq. Daha çox da Firudini. Çünki mənimlə Aydın bəyi yaxınlaşdırıb doğmalaşdıran Firudin olmuşdu.

Onu da qeyd edim ki, yataqxana həyatı tələbələrin özəl macəra dünyasıdır. Şəxsən mən yataqxana mətbəxində o səliqəsizliyin içərisində hazırlanan yeməklərin, xüsusilə, böyük bir tavada qızardılan soğançalı kartofun dadını heç vaxt unutmuram. Ona görə ki, tavadan heç kəsə pay çəkilmirdi. Hamı dədə-baba qaydası ilə tavadan loxmasını götürürdü. Kim nə qədər istəyir bir o qədər də yeyirdi. Və axırda da o tavanı yuyub-təmizləmək kiminsə "boyuna biçilirdi". Elə kartof qızartmasını ləzzətli edən bir səbəb də bu idi.

Tələbəlik illərimizdə bir çoxumuzun özəl qabiliyyətləri də üzə çıxırdı. Bax mən o zaman Aydın bəyin ictimai fəal olduğunu müşahidə edirdim. Loru dildə desək, çılğın, hadisəyə reaksiya verən və fikrini deməkdən çəkinməyən cavan oğlan özü də hiss etmədən gündəm olurdu. İndi həmin o məqamları düşünəndə xatırlayıram ki, görünür Aydın bəyə ad qoyanlar onun yolunun aydınlığa doğru gedəcəyini, aydınlığa qovuşacağını fəhm etmişdilər. Ona görə də hadisələrə anında münasibət bildirən Aydın bəy hərəkətdə idi. Yəni yola çıxmışdı. Bu yol azadlığa gedən yol idi. 90-cı illərdə artıq bunu hamımız dərk etdik. Hamımızın dərk edib, qəbul etdiyi həmin azadlıq-aydınlıq yolunu məhz mənim də aid olduğum zamanın bir çox insanları o cümlədən də Aydın bəy artıq daha həssaslıqla, öncəgörmə ilə hiss etmiş, duymuş və o yolu qəbul etmişdilər. İllər də göstərdi ki, qurbanlardan keçən bu yola işıq salanlar özləri də işıq olublar.

Bu da bir həqiqətdir ki, işığı görməyənlər də var, ondan gizlənənlər də var. Ən dəhşətlisi isə işıq gələn yerə tıxac olanlardır. Elə mənim də həyatım boyu söykəndiyim, ümid alıb güvəndiyim və yanlarında olmağa özümü həsr etdiyim adamlar, yəni aydınlar isə çəkinəcəkli, qorxaq olmayıblar. Biliblər ki, işığın özü kimi onun pərvanəsi də olur, söndürəni də. Deməli pərvanəsi olan işıq söndürülməkdən qorxmamalıdır. Axı pərvanələr qanadlıdır. İşığın sorağını hər tərəfə yayır. Və deməli həm də o sorağa yeni pərvanələr gəlir!..

Bütün bunlar bir publisist düşüncəsi deyil. Nə də yazı adamının özünü müdrik göstərmək cəhdi də hesab oluna bilməz. Bu, sadəcə görüb, yaşayıb və nəticəsini bu gün də özündə, həyatında daşıyan bir yazı adamının indi uzaq olan ötən əsrin 80-ci illərinə baxışıdır. Həmin illərdən bu günə yol gələn bir aydınımız barəsində bədii riçətdir. Və bir də o həm də bir qələm adamı olan şəxsin söykəndiyi sözə nəfəs verməsidir. Axı quru sözlər heç tükü də tərpətmir. Amma diri sözlər ürəyi qubarlandırır, ruhu cilalayır, yaşayır və yaşadır. Məhz bu mənada bu gün ömrünün 65-ci ilini diri sözlə, diri qələmlə cilalayan tanınmış publisist, dəyərli aydınımız baş redaktor olduğu "Bakı xəbər" qəzetinin timsalında sözün nəfəsini hamımıza çatdırır. O nəfəslə isidir, düşündürür və bəzən də yönəldir. Özünün və bütün aydınların yoluna tərəf.

Mən dəyərli tələbə yoldaşım, dostum, həmkarım Aydın Quliyevlə bağlı bir yubiley yazısı ortaya qoymağa köklənmişdim. Amma hələ 5 il öncə - onun 60 yaşında yazdığım yazını yenidən oxuyandan sonra bu fikrimdən daşındım. Çünki Aydın bəy 50 yaşda da, 60 yaşda da hansı əqidədə, hansı yolda olubdursa, görmüşəmsə, elə 65 yaşında da o cürdür. Deməli, dəyişən rəqəmlərdir, illərdir. Dəyişməyən isə aydınlıqdır, aydınlardır və Aydındır!

Zənnimcə, dəyişməyən Aydına nələrisə əlavə etmək yox, tərif demək yox, elə yanında olmaq daha ağıllı seçimdir. Bu, bir az təvazökarlıqdan uzaq olsa da, mənim də aydınlardan olmağıma işarədir. Və

Bizim hər gün görüşüb etdiyimiz söhbətin mövzularından biri də Aydın bəyin mənim şeirlərimdən biri barəsində söylədiyi fikirdir. Şeirin məramı belədir ki, mənə görə dünyada ən ağır dərd, ən böyük faciə aradığın nömrəyə zəngin çatmamağıdır. Bu gün böyük məmnunluqla və şükranlıqla deyə bilərəm ki, bizim bir-birimizə zəngimiz çatır. Ümidliyəm ki, Aydın bəyin zəngi 100 yaşa da çatacaq.

***P.S Yazını gənc həmkarlarımdan biri ilə müzakirə edərkən ikimiz də eyni nöqtədə həmfikir olduq. Söhbət addan gedirdi - hər kəsin, hər şeyin adından. Adın ifadə etdiyi hər kəsdən və hər şeydən. Onda hər ikimiz bir məqamı xüsusi vurğuladıq:***

- Bəzən insanın adı yada düşmür... Yaşla, şəraitlə bağlı unudulur... Amma aydınları adlarının mənası da yenidən xatırladır!

# "Uğur yolu"- Marketinq strategiyası ilə güclü brendə çevril və performansını artır

## *Şəxsi brendin yaradılması*

***Hal hazırkı dövrdə marketinq təkcə xidmət və məhsulun tanıdılması demək deyil, eyni zamanda marketinq psixologiya, idarəetmə, texnologiya və digər sahələr ilə əlaqələndirilə bilən çoxsahəli əməkdaşlığın mərkəzində dayanan strateji gücdür. Bu təcrübələr brendin daha güclü formalaşmasına eyni zamanda təşkilat daxilində birlik və dəqiqlik yaradaraq resursların səmərəli istifadəsinə səbəb olur.***

Marketinq və Sən. Marketinqdə brend fəlsəfəsi təşkilat və cəmiyyət arasında, eyni zamanda, insanların özlərini brend kimi formalaşdırmaqla başqalarının yaddaşında bir hekayə və görünüşlə rezonans yaratmaqla xüsusi bir bağ qurmaqdır.Marketinq strategiyası ilə uğurlu nəticələrə nail olmaq , eyni zamanda inkişaf, dəyərlər və məqsədlərin müəyyənləşməsi, öz hekayənin kəşfi üçün brend kimi formalaşmaq mümkündür.

Hər kəsin bir hekayəsi var, amma onu kim necə təqdim edir? Bu hekayə, sizin başqalarının gözündə qazandığınız reputasiya ilə bağlıdır və buna təcrübəniz, bacarıqlarınız, təhsiliniz, şəxsiyyətiniz, səs tonunuz, özünüzü necə təqdim etməyiniz və hətta istifadə etdiyiniz dil daxildir. Fərqi yaradan budur. İlk addım özünü bir brend kimi formalaşdırmaqdır. "Brend" necə göründüyünüz və yaddaşda necə qalmağınızdır. Karyerada uğurlu nəticələrə nail olmaq özünü yaxşı tanımaqdan başlayır. Bu dəfə brend sənsən - fərqlən, tanın, təsir et. Beləliklə, şəxsi brend kim olmağınız və nə ilə tanınmaq istədiyiniz arasındakı kəsişmədə yerləşir. Bununla siz başqalarına getmək istədiyiniz yeri göstərə bilcəksiniz və gələcək hekayənizi də idarə etmək, hədəfinizə çata bilmək imkanı əldə edəcəksiniz.

### Özünü necə təqdim edirsən..

Liderlik mühakimə etmədən dinləmək, empati qurmaq və münasibətləri qorumaq sənətidir. Daxili sabitliyi qoruyaraq komanda daxilində etimad və əməkdaşlıq mühitinin yaradılması həm şəxsi inkişafın, həm də kollektiv uğurun təməlidir.

Yaxşı lider olmaq hər kəsin işində və həyatında uğur və xoşbəxtliyə töhfə verməkdir. Həyatda rastlaşdığımız hər vəziyyətdə sağlam mühit yaratmağımız böyük əhəmiyyət kəsb edir. Qarşılaşdığımız hər bir hadisə, yaranmış münaqişə və ya narazılıq zamanı ətrafla, işdə komanda ilə balansı qurmaq və anlıq davranışla deyil, daha şüurlu şəkildə özümüzü və ətrafımızı balansda saxlayaraq daha çox mühakimə etmədən yanaşmağa çalışmaq və hadisəyə fokuslanmaq lazımdır. Belə ki, qırmızı xəttin keçildiyi zamanın davranış şəkillərini 3 yerə bölsək, seçdiyimiz şəkil daha çox uğurlu olmağa, daha geniş komanda ilə işləməyə və təşkilatda dəyərli olmağa qadir olmağımıza dair göstəricidir.

"Şikayət etmək - başqalarını günahlandırmaq, mühakimə etmək, cəzalandırmaq. - insanları nə qədər çox mühakimə etsək, onları sevməyə bir o qədər az vaxtımız olur.

"Özünü günahlandırmaq - özümüzü mühakimə edib, qurbanı oynamaq. Zəkanın ən yüksək forması mühakimə etmədən özümüzü müşahidə etmək bacarığıdır.

"Gözləyib, araşdırmaq və əlaqə qurmaq - burada özümüzü aqressiv olmayan şəkildə araşdırıb nəticə çıxara bilirik, eqomuzu kənara qoyuruq, başqalarının ehtiyacı, şəfqət, anlayış, empatiya ilə fikirləşirik.Qarşıda olan bu insan üçün "Nə vacibdir?" və "Görmədiyim bir şey varmı? kimi suallarla başqa perspektivlərə baxmağa, qulaq asmağa, dinləməyə, müxtəlifliyi qəbul etməyə, tolerant olmağa əsaslanır. Aristotel deyib: Özünü tanımaq müdrikliyin başlanğıcıdır.



***Məmmədova Gülü, Mərkəzi Gömrük Hospitalı Marketinq üzrə mütəxəssis***

Yüksək performans üçün ilk növbədə aydın məqsədlər təyin etmək vacibdir.

Məqsədlər - hara getdiyinizi, hər hansı potensial çətinlikləri necə dəf edəcəyinizi və onu saxlamaq üçün nəyə ehtiyacınızın olduğunu anlamağa kömək edir. Aydın və həyata keçirilə bilən məqsədlər keyfiyyəti yaxşılaşdırmağa kömək edə bilər. Məqsədlərinizi nə qədər diqqətlə müəyyənləşdirsəniz, istədiyinizə nail olmaq ehtimalınız bir o qədər yüksəkdir:

Hədəfləriniz çox iddialıdırsa, onlara çatmayanda çox güman ki, ruhdan düşəcəksiniz, ona görə məqsəd müəyyən etmək vacibdir. Məqsəd istiqamətdir, yerinə yetirmək istədiyiniz hədəfinizi müəyyən etmək və ona nail olmaq üçün ölçülə bilən və xüsusi prosesdir. Hansı addımları atmaq lazımdır?

Hissələrə bölün: Böyük məqsədləri daha kiçik, idarəoluna bilən vəzifələrə bölün. Bu, Lego dəstini qurmaq kimidir - hər dəfə bir kərpiclə mübarizə aparın və tezliklə şah əsəriniz olacaq.

Böyümə strategiyası uğur üçün nəyə nail olmaq istədiyinizi (görünüş) və ümumiyyətlə, buna necə nail olunacağını (missiya) müəyyən etdikdən sonra növbəti addım kimi uğura nail olmaq üçün nə ediləcəyinizi göstərən bir sıra variantlar hazırlamaqdır:

"Addım 1: Nəticə olaraq nə etdiyinizi müəyyənləşdirin - "Çıxışa yönəlmiş" deyil, "nəticəyə yönəlmiş" qalmaq üçün diqqətli olun.

"Addım 2: Özünüz görünüşü (vizyon) müəyyən etmək üçün əsas dəyərləriniz, istəkləriniz və güclü tərəfləriniz haqqında düşünün. Bütün təcrübələr mütləq bərabər deyil. Bəzən daha çox cəhd etmək daha yaxşı nəticə vermir. "Əgər təkmilləşmirsinizsə," Ericsson deyir, "bu, fitri istedadınız olmadığı üçün deyil; düzgün şəkildə məşq etmədiyiniz üçündür." Ən yüksək performansa çatmaq üçün saatları sərf etməlisən, həm də səy göstərməlisən.

### 1. Özünüzü necə dərk edirsiniz?

Emosional zəka emosiyalarınızı anlamaq və idarə etmək bacarığı, ətrafınızdakı insanlarla müsbət münasibət və möhkəm əlaqələr qurmağınıza imkan verən vacib bir bacarıqdır. Emosional zəka (EI) 100 faiz inkişaf etdirilə bilər. Bu yolla siz güclü tərəfləriniz haqqında və karyeranızda onlardan necə istifadə edə biləcəyiniz barədə məlumatınızı artırarkən malik ola biləcəyiniz hər hansı zəif cəhətləri aşkar edə və üzərində işləyə biləcəksiniz. EI səviyyələrinizi yoxlamaq üçün onlayn olaraq çoxlu özünü qiymətləndirmələr mövcuddur. Siz EI-ə iki perspektivdən baxaraq bəzi əsas suallarla başlaya bilərsiniz: özünüz və digər insanlar. Ünsiyyət qurmaq, öz emosiyalarınızı və birlikdə işlədiyiniz insanların hisslərini başa düşmək və onları idarə etmək bacarıqlarınızı və strategiyaları müxtəlif perspektivlərdən qiymətləndirmək üçün SWOT (güclü, zəif tərəflər, imkanlar, təhlükələr) təhlilindən istifadə edin:

"Əsas güclər - Əgər bir güc sizin cari rolunuz üçün vacibdirsə, o, "Əsas güc"ə çevrilir. Bunlar hər fürsətdə diqqət etməli, inkişaf etdirməli və vurğulamalı olduğunuz qabiliyyətlərdir.

"İstifadə edilməmiş güclü tərəflər - Bəs, bəzi güclü tərəfləriniz sözügedən rol üçün vacib deyilsə? Güclü cəhətlər potensialınızı təmsil edir. Sizin "İstifadə edilməmiş gücləriniz" cari rolunuzu yenidən formalaşdırmaqda və ya karyera istiqamətinizi dəyişməkdə sizə kömək edə bilər. Bu isə "Əsas Güclü tərəfləriniz"lə birlikdə sizin ən yaxşı şəklinizi təqdim edəcək.

"İnkişaf etməmiş bacarıqlar - Əgər siz öz rolunuz üçün vacib olan bir işi görməkdən zövq alırsınızsa, həvəsiniz "İnkişaf etməmiş bacarıqları" məşq etmək istəyi ilə güclü tərəflərə çevirə bilər. Və ya bəlkə də onlar sadəcə olaraq sizin "Gedəcəyəm" siyahısında qalmalıdırlar.

"Zəif tərəflər - Bəyənmədiyiniz və ya yaxşı olmadığınız, lakin rolunuz üçün vacib olan bacarıqlar "Zəif tərəflər" hissəsinə düşür. Bu bacarıqların fəal şəkildə inkişaf etdirilməsi gücə çevrilə bilər. Bununla belə, o qədər də yaxşı sayılmayan tərəflərinizin olduğunu qəbul etmək vacibdir. Onların sözügedən rol üçün əhəmiyyətini həqiqətən qiymətləndirin və bunun həqiqətən karyeranıza lazımi istiqamət olub-olmadığını düşünün.

Bacarıqlarınız və güclü tərəfləriniz haqqında düşünməyə vaxt ayırın. Çünki onları kateqoriyalara ayırmaq sizə iş rolunuzu və karyera istiqamətinizi daha dəqiq müəyyənləşdirməyə, hansı tərəflərinizin yaxşı olduğunu qeyd etməyə, zəif tərəflərinizi qəbul etməyə kömək edə bilər.

### 2. Motivasiyalarınız haqqında aydın təsəvvürünüz varmı?

Emosional intellektli (zəkalı) olmaq təkcə işlərin çətinləşdiyi zaman emosiyalarınızı bilmək demək deyil. Bu həm də sizin gündəlik etdiyiniz işlərin məqsədlərinizə, dəyərlərinizə və motivasiyalarınıza uyğun olduğunun fərqində olmağınız deməkdir.Düzgün müəyyən edilmiş məqsədlər beynin mərkəzlərini aktivləşdirir, motivasiyanı təmin edən aydın yol xəritəsi təqdim edir. Motivasiya üçün başqa bir güclü vasitə təsvir etməkdir. Məşqçilər öz məqsədlərinə çatmağı və ondan sonrakı faydaları təsvir etməyi təşviq etməklə, bu proses atletlərin yarışda qalib gəldiyini təsəvvür etdiyi kimi, dopaminin sərbəst buraxılmasına səbəb ola bilər. Bu zehni məşq faktiki davranışla əlaqəli sinir yollarını işə salır, insanı fəaliyyətə hazırlayır. Bundan əlavə, mükafat gözlənməsi çox vaxt mükafatın özündən daha çox həvəsləndirici ola bilər. Məqsədə çatmağın gözləntisi motivasiyanı yüksək saxlayır.

### Daxili maneələr:

"Mükəmməllik: Mükəmməlliyə can atmaq qeyri-real gözləntilərə və daimi özünütənqidə səbəb ola bilər ki, bu da inamlı hiss etməyi çətinləşdirir.

"Uğursuzluq qorxusu: Səhv etmək qorxusu işçilərin risk almasına və ya yeni vəzifələr götürməsinə mane ola bilər, özünə inamı azalda bilər.

"Utancaqlıq qorxusu: Başqaları tərəfindən dəstəklənməyən bir görüşdə ideya təklif etmək kimi "səhv" etmək qorxusu istehza və utanmaya səbəb ola bilər.

### Xarici maneələr:

"Yüksək rəqabətqabiliyyətli həmkarlar: Yalnız fərdi hədəflərə və töhfələrə diqqət yetirən həmkarlarla yanaşı işləmək, yoldaşlığın olmaması ilə stresli bir mühit yarada bilər ki, bu da inam səviyyəsinin aşağı düşməsinə səbəb ola bilər.

"Əvvəlki pis təcrübələr: Keçmiş şəxsi və peşəkar mənfi təcrübələr, problemlər və ya həyat hadisələri uzana və cari inam səviyyələrinə təsir göstərə bilər.

"Bilik çatışmazlığı: Əgər tanış olmadığınız bir işə uyğunlaşırsınızsa, bu, tamamilə normal olsa da, yerinə yetirilən vəzifə və ya rolda bilik çatışmazlığı özünəinama təsir edə bilər.

Özünü dərk etmək güclü tərəflərinizi, dəyərlərinizi və inkişaf sahələrinizi dərk etməklə başlayır. Qüsurlarınızı qəbul edin və özünüzə qarşı xeyirxah olun. Baxış nöqtənizi dəyişdirin.Nailiyyətlərinizi, bacarıqlarınızı və müsbət rəylərinizi qeyd etmək üçün uğur jurnalı saxlayın. Uğurlarınızı qeyd etməyi unutmayın.Müsbət münasibət nümayiş etdirin. Daha çox gülümsəyin, tənqid etməkdən daha çox həvəsləndirin və orada olmaqdan xoşbəxt olduğunuzu göstərin.Oxşarlıqları tapın: Arxa planda, təcrübədə və dəyərlərdə oxşarlıqları axtarın və vurğulayın. Əlaqələri gücləndirmək üçün "biz" və "bizim" kimi inklüziv terminlərdən istifadə edin

Bu addımlar, çətinliklərin öhdəsindən gəlmək, məqsədlərə nail olmaq və işdə uğur qazanmaq üçün tədricən özünəinam qazanmağa kömək edə bilər.?Harada işləməyinizdən, hansı vəzifədə olmağınızdan asılı olmayaraq, ilk öncə başqalarını idarə etməkdən əvvəl özünüzün rəhbəri olun. Zamanınızı iş və həyat harmoniyasına uyğun bölün. Fikirlərinizi, məqsədlərinizi idarə etməyi bacarın - düşüncənizin keyfiyyəti sizin həyatınızda mühüm rol oynayır. Hər gün özünüzə sual verin: Bu gün dünəndən fərqli nə etdim? BU GUN NƏYİ ÖYRƏNDİM?. Vaxtınızı idarə etməyi bacarın. Siz özünüz öz həyatınızın kapitanısınız, özünüzü özünüz yaradırsınız, sadəcə olaraq, özünüzə inanın.

# Gecikmiş deyil, dəqiq seçim

***Son illərdə dünyada və Azərbaycanda 30 yaşdan sonra ailə quran insanların sayı artmaqdadır. Ənənəvi olaraq insanlar daha gənc yaşlarda evlənməkdə idi, lakin indi təhsil, karyera və şəxsi inkişaf kimi faktorlar bu yaş həddini yuxarıya çəkir. 30 yaşdan sonra evlənməmək müxtəlif səbəblərlə bağlıdır: fərdi seçimlər, sosial və iqtisadi amillər, habelə münasibətlərdə dəyişən tələblər. Bu yaş qrupu üçün evlilik təkcə sosial statusdan daha çox emosional uyğunluq, iqtisadi sabitlik və həyat yoldaşı ilə uyğunluq kimi faktorlara bağlıdır. Bundan əlavə, 30 yaşdan sonra insanlar həyat təcrübəsi qazandığından münasibətlərdə daha seçici olurlar.***

SİA mövzu ilə bağlı araşdırma aparıb.



## Statistika: dünyada və azərbaycanda

*Dünyada:*

* Qərbi Avropa və Şimali Amerikada 30 yaşdan sonra evlənənlərin sayı 2000-ci illərin əvvəllərinə nisbətən 20-30% artıb.

* ABŞ-da orta evlilik yaşı kişi üçün təxminən 30, qadın üçün isə 28 yaşa yaxınlaşır.



* Yaponiyada isə 30 yaşdan sonra evlənənlərin faizi 40%-i keçmişdir.

*Azərbaycanda:*

* Son illərdə Azərbaycanda da evlənmə yaşı yüksəlməkdədir. Orta hesabla kişi 28-30 yaş, qadın isə 25-28 yaşda evlənir.

* Statistikaya görə, 30 yaşdan sonra ilk dəfə evlənənlərin faizi əvvəlki nəsillərlə müqayisədə artıb, xüsusilə şəhərlərdə.

* Sosial və iqtisadi səbəblərdən qadınlar təhsillərini bitirib, karyera qurduqdan sonra evlilik qərarı verirlər.

## Niyə 30-dan sonra evlilik çətinləşir?

**1.** Seçicilik artır: Bu yaşda insanlar daha təcrübəlidir və münasibətdə daha çox kriteriyalar irəli sürürlər.

**2.** Yaşam vərdişləri formalaşır: 30 yaşdan sonra insanların həyat tərzi artıq möhkəmlənir, dəyişikliklər çətinləşir.

**3.** Sosial tələblər: Ətrafdakı dostlar, ailə üzvləri artıq ailəlidir, sosial mühit fərqli olur.

**4.** Bioloji faktlar: Xüsusilə qadınlarda reproduktiv yaşın azalması evlilik qərarını psixoloji olaraq çətinləşdirir.

**5.** Karyera və müstəqillik: 30 yaşdan sonra insanlar karyera və şəxsi azadlığa daha çox önəm verir, bu da evlilik qərarını gecikdirir.

## 30 yaşdan sonra kişi və qadınların evlilik tələbləri

*Kişilərin tələbləri:*

* Emosional dəstək və sadiqlik
* Müstəqillik və qarşılıqlı hörmət
* Həyat yoldaşı ilə uyğunluq və anlayış
* Müsbət ailə dəyərləri və gələcək planları ilə uyğunluq



* Karyera və şəxsi inkişaf üçün dəstək

*Qadınların tələbləri:*

* Güvən və sadiqlik
* Emosional bağlılıq və empatiya
* Maddi və sosial sabitlik (bir çox hallarda)
* Ailə və gələcək planlarında uyğunluq
* Hörmət və şəxsiyyətə dəyər verilməsi

30 yaşdan sonra evlənməyən insanlar üçün münasibət, həyat keyfiyyəti və daxili rahatlıq baxımından bir sıra tövsiyələr faydalı ola bilər. Bu mərhələdə həyat təcrübəsi artdığı üçün seçimlər daha şüurlu olur, amma eyni zamanda sosial və ailə təzyiqləri də ola bilər. Aşağıdakı tövsiyələr bu vəziyyətdə olanlar üçün yönləndirici ola bilər:

**1. Cəmiyyətin təzyiqinə qarşı dözüm göstərin**

”Nə vaxt evlənəcəksən?” kimi suallara qarşı səbirli olun. Bu cür suallar şəxsi seçimlərinizi gözdən salmamalıdır.

Unutmayın: evlənmək həyatın məqsədi deyil, şəxsi bir seçimdir. Gec evlənmək bəzən daha sağlam və uzunömürlü münasibətlərə səbəb olur.

**2.Özünüzü daha yaxşı tanıyın**

Öz istəklərinizi və ehtiyaclarınızı müəyyənləşdirin: münasibətdə nəyə ehtiyacınız var? Nə sizi xoşbəxt edir?

Bu yaşda münasibətlərə daha real və emosional olaraq sabit yanaşmaq üstünlükdür.

**3. Münasibətə açıq olun, amma tələsməyin**

Həyat yoldaşı seçimi tələskənliklə ediləcək qərar deyil. Tanışlıqlar üçün açıq olun, lakin uyğun insanı seçmək üçün öz standartlarınızı qoruyun.

Onlayn tanışlıq platformaları və sosial tədbirlər bu yaş qrupuna uyğun seçim imkanları təqdim edə bilər.

**4. Özünüzü inkişaf etdirin**

Tək həyat da dolğun və mənalı ola bilər. Karyera, hobbi, səyahət, yeni bacarıqlar öyrənmək sizin həyat keyfiyyətinizi artırar.

Bu həm sizin öz dəyərinizi artırar, həm də gələcək münasibətə töhfə verər.

**5. Psixoloji sağlamlığınıza diqqət edin**

Tənhalıq hissi yarana bilər, amma bu, daim davam edən bir vəziyyət deyil. Psixoloqla danışmaq bəzən bu mərhələdə rahatlıq verə bilər.



Emosional ehtiyaclarınızı dostluq, ailə və ictimai fəaliyyətlərlə də qismən qarşılamaq mümkündür.

**6. Eyni düşüncəli insanlarla əlaqə qurun**

30+ yaş qrupunda evli olmayan və ya eyni həyat tərzini paylaşan insanlarla dostluq etmək həm dəstək, həm də motivasiya verə bilər.

Həmfikir insanlarla ünsiyyət sizi daha yaxşı başa düşülmüş hiss etdirər.

**7. Unutmayın: hər şeyin zamanı var**

Həyatın hər mərhələsinin öz gözəlliyi var. 30 yaşdan sonra qurulan münasibətlər daha yetkin və real ola bilər.

Gec evlənmək, daha doğru seçim və uzunmüddətli xoşbəxtlik üçün fürsət ola bilər.

***Ayşən Vəli***

# Zəfər tariximizin başlanğıcı: 15 İyun - Milli Qurtuluş Günü






*Həmid MEHDİYEV, Binəqədi rayon Ağsaqqallar Şurası İdarə Heyətinin üzvü*

***Hər bir xalqın taleyində elə günlər olur ki, onlar tarixə qızıl hərflərlə yazılır. Azərbaycan xalqının da taleyində böyük əhəmiyyəti olan günlərdən biri və ən önəmlisi 15 İyun - Milli Qurtuluş Günüdür.***

Ötən əsrin 90-cı illərinin əvvəllərində Azərbaycan torpaqlarının Ermənistan silahlı qüvvələri tərəfindən davam edən işğalı, getdikcə gərginləşən iqtisadi-siyasi, sosial vəziyyət ölkəni bu bəlalardan xilas edə biləcək, xalqı öz arxasınca aparmağa qadir liderə ehtiyac olduğunu şərtləndirirdi. Cəmiyyətdə belə bir ümumi fikir yaranmışdı ki, ölkəni düşdüyü bu ağır vəziyyətdən çıxarmağa qadir olan yeganə şəxsiyyət Heydər Əliyevdir. Xalqımız öz dahi oğlunu təkidlə hakimiyyətə dəvət edirdi. 1993-cü il iyunun 9-da Ulu Öndər Heydər Əliyev xalqın çağırışına səs verərək Naxçıvandan Bakıya gəldi və bir neçə gündən sonra hakimiyyətin sükanı arxasına keçdi. Bu, sözün həqiqi mənasında, ölkəmizin taleyində dönüş anı oldu.

Ulu Öndər müstəqilliyimizin həmin mərhələsini belə xarakterizə edirdi: ”Azərbaycan böyük təhlükə qarşısında idi. Çünki Azərbaycanın müstəqil yaşamasının əleyhinə olan həm daxildəki qüvvələr güclü idi, həm də Azərbaycan kimi böyük coğrafi-strateji əhəmiyyətə, zəngin təbii sərvətlərə malik olan ölkənin tam müstəqil olması başqa ölkələrdə bəzi dairələri qane etmirdi. Ermənistanın Azərbaycana etdiyi təcavüz və bunun nəticəsində Azərbaycanın zəifləməsi, məğlubiyyətə uğraması, ikinci tərəfdən də daxildə hakimiyyət çəkişməsi... 1992-ci ilin iyun ayında hakimiyyətə gəlmiş qüvvələri bir ildən sonra xalq özü hakimiyyətdən saldı.”

İyunun 15-də Azərbaycan Ali Sovetinin sədri seçilən Heydər Əliyev deyirdi: ”Mənim həyatım da, fəaliyyətim də yalnız və yalnız Azərbaycanın müstəqilliyinin qorunub saxlanmasına, ölkəmizin bu ağır vəziyyətdən çıxmasına həsr olunacaqdır”. Ümummilli Lider problemlərin həlli üçün, ilk növbədə, bütün səylərini ölkədə vətəndaş həmrəyliyinin, sabitliyin təmin olunmasına yönəltdi və buna nail oldu, gələcək inkişaf üçün möhkəm təməllər yaratdı. Bu istiqamətdə atılan ilk mühüm addım 1994-cü ilin sentyabrında ”Əsrin müqaviləsi”nin imzalanması oldu. Sonrakı dövrdə Ulu Öndərin təşəbbüsü və rəhbərliyi ilə Bakı-Tbilisi-Ceyhan, Bakı-Tbilisi-Ərzurum neft və qaz kəmərlərinin çəkilişinə başlanıldı. Prezident İlham Əliyevin hakimiyyəti dövründə bu transmilli layihələrə Asiyanı Avropa ilə birləşdirən Bakı-Tbilisi-Qars dəmir yolu, Azərbaycan qazını Avropaya çatdıran Cənub Qaz Dəhlizi əlavə edildi.

1995-ci ilin noyabrında demokratik, hüquqi dövlətin təməlini təşkil edən yeni Konstitusiya qəbul olundu. Eyni zamanda, zəruri islahatlar aparılması üçün normativ-hüquqi bazanın formalaşdırılmasına start verildi. Təfərrüata varmadan demək olar ki, Qurtuluş Günü Azərbaycanın xaosdan, anarxiyadan, hərc-mərclikdən, özbaşınalıqdan, parçalanma təhlükəsindən qurtularaq sabitliyə, əmin-amanlığa, inkişafa qovuşmasının əsasının qoyulduğu, ölkəmizin taleyinin dəyişdiyi gündür.

Ümummilli Lider Heydər Əliyev Azərbaycanı real təhlükələrdən xilas etməklə yanaşı, gələcək inkişaf strategiyasını müəyyənləşdirdi və bu istiqamətdə ilk mühüm addımlar atdı. Ulu Öndərin gərgin fəaliyyəti, səyləri nəticəsində ictimai-siyasi sabitlik bərqərar olundu, böyük təhlükə mənbəyi olan qeyri-qanuni silahlı dəstələr zərərsizləşdirildi, sosial-iqtisadi dirçəlişə yol açan islahatlar başlandı. Gələcəyə, konkret nəticələrə hesablanmış bu siyasət nəticəsində, həmçinin Ermənistan silahlı qüvvələrinin torpaqlarımıza davam edən təcavüzünün qarşısını almaq mümkün oldu.

Xalqımız artıq neçə ildir ki, bu bayramı yüksək əhvali-ruhiyyə, milli qürur hissi, Qələbə ovqatı ilə qeyd edir. Qurucusu Ümummilli Lider Heydər Əliyev olan şanlı Azərbaycan Ordusu Prezident, Müzəffər Ali Baş Komandan İlham Əliyevin rəhbərliyi ilə Vətən müharibəsində parlaq Qələbə qazanaraq işğal altındakı torpaqlarımızı azad etdi, ölkəmizin ərazi bütövlüyü təmin olundu. 44 günlük Vətən müharibəsində qazandığımız möhtəşəm Zəfər və digər uğurlar öz başlanğıcını məhz Milli Qurtuluş Günündən götürür. Ulu Öndərin ən böyük arzusu Azərbaycanı bütöv görmək idi. Ümummilli Lider Heydər Əliyevin məcburi köçkünlərlə görüşlərinin birində böyük inamla və özünə xas uzaqgörənliklə söylədiyi bu sözlər yada düşür: ”Arzu edirəm ki, sizinlə birlikdə gedək Şuşaya. Gedəcəyik, inanın ki, gedəcəyik. Şuşa Azərbaycanın gözüdür, hər bir azərbaycanlı üçün iftixar mənbəyidir. Şuşa bizim mədəniyyətimizin, tariximizin rəmzidir. Şuşa hamı üçün əzizdir. Amma təkcə Şuşa yox, Laçın dağları da əzizdir. Biz heç vaxt Laçınsız yaşaya bilmərik. Ağdam kimi gözəl bir şəhər, Füzuli, Cəbrayıl, Zəngilan, Qubadlı, Kəlbəcərin o bulaqları, Kəlbəcərin o İsti suyu - biz onlarsız yaşaya bilmərik”.

Ulu Öndərin ən böyük arzusu Azərbaycanı bütöv görmək idi. Ulu Öndərin arzuları 27 ildən sonra reallaşdı, Prezident cənab İlham Əliyev ata vəsiyyətini yerinə yetirdi. Bu gün Şuşada, Laçında, Ağdamda, Füzulidə, Cəbrayılda, Zəngilanda, Qubadlıda, Kəlbəcərdə, Xankəndidə üçrəngli bayrağımız əzəmətlə dalğalanır. Qalib xalq, müzəffər ordu və müdrik Ali Baş Komandan birliyi ilə hələ qarşıda neçə-neçə tarixi zəfərlər, qələbələr bizi gözləyir.



Lalə Mehralı

# Yeni nəsil media mətbuata nə verdi?

***Qarşıdan Mətbuat Günü gəlir, 150-ci dəfə qeyd edəcəyik peşə günümüzü. Bizə bu günü ərməğan edən baş jurnalistimizə - milli jurnalistikamızın banisinə sevgi, hörmət və minnətdarlıqla. Hər nə qədər müasir və milli jurnalistikamız donunu və genini dəyişdirsə də, təməlində eyni amallar, prinsinsiplər dayanır. Doğrudur, təməl prinsipləri də gərəksiz hesab edən gənc jurnalist nəsli formalaşıb ki, onların öz doğruları, öz prinsipləri var.***

Dövrümüzün özəlliyi yeni jurnalistika modelinin formalaşmasına təsir göstərir. Texnoloji yeniliklərin ən üst səviyyəyə qədər çıxması, insanı təəccübləndirən yeniliklərin edilməsi, süni intellektlə tanışlıq jurnalistikada da inqilaba səbəb olacaq. Hazırkı dövr özünəməxsus fəlsəfəsi, estetikası, həyat tərzi, cəmiyyəti, hüquqi, mədəni qaydaları olan bir dövrdür və hər sahə bu dövrə ayaq uydurmaq məcburiyyətindədir.

Əslində, dövrümüzü bu qədər qüdrətli edən, hökmranlıq etməsi üçün dəstək verən, məhz mediadır. Bəzən medianın gücü xəfifə alınır, etinasızlıqla yanaşılır, amma kiçik bir qığılcımı böyük bir meşələ çevirən gücün məhz mediada olduğunu unudur bəzən insanlar. Əlbəttə ki, bura həm televiziyalar, həm radiolar, həm qəzetlər, həm saytlar, həm də bloqlar və sosial şəbəkələr daxildir. Amma gəlin etiraf edək ki, indi sosial şəbəkələr digər kütləvi yayım vasitələrini bir neçə addım geridə qoyub və hər nə qədər ciddi media hesab edilməsə də, media aləminin ümumi platformasına çevrilib. Bu səbəbdən yeni media sistemi ortaya çıxıb- sosial media. Başqa sözlə desək, peşəkar mətbuatın önünü qabalıqla kəsən müasir media forması.

Mətbuat və televiziya böyük qüvvədir, silahı görünməyən, amma silahların ən təhlükəsinə sahib olan qüvvə. Cəmiyyət medianın əlindəki silahı görmədiyi üçün nəyə məruz qaldığını da anlamır adətən. Bir foto, bir köşə yazısı və yaxud kiçik bir sujet əslində fərqli olan bir faktı tərsindən anlada bilir, cəmiyyətin diqqətini səhv istiqamətləndirə bilir, insani duyğulardan, vicdandan, mərhəmətdən yoğrulan düşüncələri istismar edə bilir.

Media hər dövrdə gücə, hökmə malik olub və hökmranlıq etməyin ən təsirli silahı olub. Lakin dövrümüzdə medianın əldə etdiyi güclə keçmişdəki gücünü müqayisə etmək mümkün deyil. Bu yolla nəzərdə tutulduğundan da çox insana xitab edilib, məqsədə çatmaq üçün insani duyğuların sümürülməsi, vicdan, mərhəmət kimi hislərin istismarı da həmişə aktual olub.

Yeni nəsil mediada çox təəssüf ki, vicdan faktoru bir çox hallarda arxa planda qalır, əsas kriteriyalar maddi gəlir və kütləyə çıxış əldə etməkdir. Media bir kommersiya obyektinə, ya da siyasi təsir alətinə çevrilir. Bu məqsədlə də kütləni aldatmaq, onu istədiyin yerə yönləndirmək lazımdır. Burada isə vicdan arxa plana keçir. Nəticədə, gəlir və nüfuz əldə edilə bilər, amma inam və etibar itirilir.

Əgər siz mediada güc və hakimiyyət istəyirsinizsə, bu yolda qarşınıza çıxan anlayışlardan biri də məhz vicdan olacaq. Çünki jurnalistikanın təməl materialı insandır. Hər hansı vəziyyətdə olan bir insan- intihar edən, dünyaya gələn, yaralanan, xəstələnən, sevinən, uğur qazanan, bədbəxt olan hər hansı bir insan yaxşı bir xəbər mövzusu ola bilər.

Yəni, dolayısı ilə qayəsi insan olan bir işin xəmiri də insani hisslərlə yoğrulmalıdır. Məhz bu səbəbdən də jurnalistlərdən ən çox gözlənilən şey də cəmiyyətin vicdanı olmalarıdır. Bu istək, əslində, bizim peşəmizin tərifi, düsturudur. Vicdanımızın olub-olmaması fərddən fərdə dəyişə bilir, amma peşəmizin əsas tələbi dəyişməzdir.

Biz yazmaq üçün gündəlik mövzu tapmalıyıq - gündəmlə səsləşən, maraqla oxunan mövzu. Müşahidə qabiliyyətimiz yaxşı olmalıdır, gördüyümüzü yazıya çevirə bilməyimiz üçün. Yazarkən peşəkarlıq və insanlıq arasında gedib-gəlirik, hansı tərəfimiz tərəzidə ağır gəlsə digər tərəfimizə haqsızlıq olur. Xatırlayın, sürünərək ərzaq düşərgəsinə gedən uşaq fotosu var, körpə, halsız bir uşaq. Onu 1994-cü ildə Kevin Karter çəkib, həmin şəkildə Cənubi Afrikadan olan və aclığın haldan saldığı uşaq sürünə-sürünə qida paylanan düşərgəyə getmək istəyir. Yaxınlıqda isə uşağı yemək istəyən yırtıcı quş var. Doğrudur, onun peşəkarlıq tərəfi tərəzidə ağır gəlir, həmin anları lentə alır, işini bitirdikdən sonra yırtıcını qovur, lakin uşağa toxunmur, çünki ona xəstəliyin yayılmasına qarşı belə bir tapşırıq verilmişdi. Çəkdiyi bu fotoya görə çox tənqid olunan fotoqraf çox keçmir ki, Pulitzer mükafatını alır, lakin mükafatdan 3 ay sonra 33 yaşında itihar edir. İntihar məktubunda aclıqdan ölən uşaqların dəhşətinə dözə bilmədiyini yazmışdı.

Düzdür, Kevin sadəcə işini mükəmməl formada yerinə yetirmək istəmişdi, bunun üçün vicdanını bir neçə dəqiqəlik susdurmuşdu, uşağa kömək etməyi təxirə salıb kamerasını işə salmışdı. O öz işini mükəmməl şəkildə görmək istəyirdi, bütün sahələrdə olduğu kimi. Amma insanlığı ilə işi arasında seçim etmək də onun vicdanına yük oldu.

Əslində, medianın boynuna çox şey yükləyir, çox şey tələb edirlər. Həm haqlıdırlar, həm də haqsız. Medianın vəzifələri əlbəttə çoxdur, lakin unutmaq lazım deyil ki, media həm də bizim özümüzü özümüzə təqdim edir. Media cəmiyyətin gözüdür, dilidir, qulağıdır, amma cəza kəsəni, ittiham edəni, hökm verəni deyil. Media güzgü olmalıdır, düzü düz, əyrini əyri göstərməyi bacarmalıdır. Bunu etmək üçün isə vicdan lazımdır.

Nə cür yazılırsa yazılsın, nə cür adlandırılırsa adlandırılsın, fərqi yoxdurvicdan sözü hər dildə, hər millətdə, hər cəmiyyətdə eyni mahiyyət daşıyır. Mənasını hamı anlayır- içimizin güzgüsü. Vicdan və insan kəlmələri, əslində, eyni mənanı verir- insansansa vicdanın var və ya vicdanın varsa insansan. İçimizdəki ən böyük hakimin adı vicdandır. Bütün ideoloji, milli, mənəvi, sosial, siyasi vəziyyətlərdə vicdanla qərar qəbul etməyimiz diləyi ilə...



FELYETON

# Banklar, kreditlər və BİZ...

Hə, indi qızını ərə verərkən cehizinin üstündə diplom da olmadısa, ta bunun nə faydası. Heç elə bil nə əziyyət çəkib banklara kreditə girib o dəbdəbəli toyu eləmisən, nə də yenə banklara kreditə girib o boyda cer-cehizi yığmısan. Asan iş deyil ey, Allah verərsə, iki-üç nəvən olacaq, hələ sən biçarə o kreditləri ödəyib qurtara bilməyəcəksən.

Axı, bax, bu misal haradan ortaya çıxıb ki, bizim də qanımıza işləyib? Misala bax: qonşu qonşuya baxar, canın odlara yaxar. Ay qardaşlar, ay bacılar, niyə baxırsınız? Axı ata-babalarımız bizə başı aşağı olmağı da tövsiyə edib gediblər. Sal başını aşağı, qonşunun-qohumun yanından keç. Sənə kim deyir ki, başını qaldırıb görəsən ki, qonşu ikimərtəbəli ev tikdirib. Sən də düşəsən sevdaya ki, yox ey, necə, nə təhər edim ki, onun tikdiyi evdən mən də tikim. Məgər mən ondan kəsir oğlanam ki, hasarın o tərəfindən onun evi boylana, mənim evim də hasarın içində itə.

Hə, nə edirik? Axı qonşudan fərqli olaraq nə əlimizdə, nə də ovcumuzda var. Düşürük bank-bank, deyirik görək hansı bir azca aşağı faizlə pul verir, götürək başlayaq. Banklar da ki, Allah onlara insaf versin, nə dinləri var, nə də imanları. Faizi eşidəndə neçə ildən bəri alıb, hələ də yeniləyə bilmədiyin papaq da özünü başdan atır yerə. Amma çarə nədir? Nəyin bahasına olursa-olsun bu pul götürülməli, o ev tikilməlidir. Sonrası həmişəki klassik düşüncəmiz: Allah kərimdir.

Hə, pulu götürdük, başlayırıq evimizi bir mərtəbə də artırmağa. Qonşununku qədər olmasa da, ona yaxın bir şeyə oxşadırıq. Səhəri qonşunun yanından keçəndə isə elə bir havada oluruq ki, gələsən, görəsən.

Bu qonşu da ki, Allah saxlamış, haradan alır, haradan tapır bu pulu, nə bilim axı. Bir təhər ki, dişini-dırnağını sıxıb evi qurtarmışdın ki, bir də görürsən qonşunun qapısının ağzında bir maşın. Ə, bu nədir, ə? "Buna bax, maşınına bax",- deyirsən və için-için yeyir. Yenə o köhnə papağını qabağına qoyub başlayırsan fikirləşməyə ki, necə edim, bir babatını da mən alım. Amma ala bilmirsən axı. Kreditin var. Çox düşünüb, çox daşınandan sonra deyirsən ki, ə, var, var da. Qoy gedib bu səfər də arvadın adına kredit götürüm. Üz tutursan yenə banklara. Yaxşı bunu da bir təhər həll edib, alırsan bir maşın, qoyursan qapının ağzına, olursan qonşu ilə bərabər. Amma necə bərabər? Bax bunu deyə bilmirəm.

Günlər keçir, arvad deyir ki, ay kişi axşam gələndə konfetdən-zaddan bir kilo al, gedək qonşuya, deyir qızı məktəbə girib. Ay Allah, bax, müsibət bu dəfə başlayır, özü də necə başlayır. Ta kişi kiriyərmi, susarmı məgər?

-Hə, xalxın da uşaqları var, mənim də. Bax ey, gör camaatın balasının səsi haralardan gəlir. Bizimkilərə də oxu deyəndə, canları çıxır. İndi bu gündən baxassız gününüzə, yaxşı.

Nə isə, axşam da gedirlər qonşuya gözaydınlığı verirlər. Qayıdırlar evə. Bu dəfə də düşürlər diplom sevdasına. İlişirlər uşaqların canına. Başlayırlar onları hazırlığa qoymağa. Nədi, nədi ki, bunlar bal toplayıb bir məktəbə girsinlər. Uşaq deyir, ay dədə, vallah mən riyaziyyatdan heç nə anlamıram. Ata deyir ki, qələt edirsin, öyrənməlisən. Qız deyir ki, ay ana, vallah, nə qədər edirəm kimyadan, fizikadan bir şey başa düşmürəm, ana deyir ki, heç nə olmaz, bəs müəllim nədən yanadır, qoyuruq hazırlığa ki, öyrənəsən də.

Hə, bax, belə-belə bir də baxdıq ki, dəbdəbəli toy, cehiz kimi, diplom da dəbə düşdü. Camaat başladı bir-birinin bəhsinə uşağını oxutmağa. Uşaq oxudu-oxumadı, gedir hazırlığa, valideyn də başlayır yeməyindən, əynindən-başından kəsib hazırlıq pulunu ödəməyə. Vaxt gəlir, baxırlar ki, vay, bu uşaq üç-dörd ildir hazırlığa gedib, topladığı bala bax. Bu dəfə də valideyn deyir, əşi, ta nə edim ey, düşür düşsün də ödənişliyə, çarə nədir, bir təhər oxuduraram. Yenə də başlayır bank-bank gəzməyə. Hara gedir, banklar od tutub yanır. "Çarə yoxdur ey, qonşunun oğlu keçən il girib məktəbə, qızı da bu il. Sinifdə universitetə girməyən qalmayıb. Mənimki niyə geridə qalmalıdır?",- deyib, götürür pulu aparıb ödəyir məktəbə. Uşaq da olur tələbə.

Elə ki, məktəblərin açılmasına az bir zaman qalır, yenə valideynin kürkünə birə düşür. Axı dərd bir deyil, iki deyil? Bunun əyni-başı var, qalmağa yeri var, yeməyi-içməyi var, dəftər-qələmi var, başqa məsələləri var...

Gün o gün olur ki, uşaq universiteti sürünə-sürünə, bir təhər bitirir. Elə bu ərəfə də ata krediti bitirir. Zalım bu qonşu da dayanmaq bilmir də. Bir də eşidirlər ki, uşağı düzəltdi filan yerə işə. Vəssalam, dərd başladı. Arvad başlayır danışmağa, ta kirimək bilmir: bu uşağa bir iş tapa bilmədik. Balam gül kimi məktəb bitirib oturub evdə. Xalxların da uşağı odur ey, gör, haralarda işləyir.

Yaxşı, bunu eşidən ata nə eləsin? Uşaq da ki, nə işə qəbul imtahanı verəndi, nə də oturub təzədən qabağına kitab-dəftər tökəndi. Olan-qalan hövsələsini də 4 il universitet əlindən alıb.

Ata düşünür ki, yox ey, yenə bir banka baş çəkim, görüm faizlər indi necədir, pul götürüm bu uşağa bir iş tapım. Düşür bank-bank yenə də gəzir, axır biri ilə razılaşıb, pul götürür. Sonra da fikirləşir ki, İlahi-pərvərdigara, mən bu pulu indi kimə etibar edib verim ki, işimi görsün, birdən bir nadürüstə rast gələrəm, pulum batar, it də gedər, ip də. Artıq bu, qalır Allaha, qarşına ya dürüst biri çıxa, pulunu alıb işini görə, ya da nadürüstü çıxa, pulunu alıb aradan itə.

***

Hə, kişi başlayır dərd çəkməyə, fikir eləməyə. Arvad da o tərəfdən qayıdır ki, ay kişi, axı eviydi də oturmuşduq, nəyimizə lazımdı bu ikimərtəbəli ev? Heç yuxarı qalxan da yoxdur. Kişi də başlayır çığırmağa: az, dünənədək sən deyildin, gündə qonşunun evinə, bax, deyən? İdi nə artistlik edirsən?

Sonra arvad görür ki, fikir bu kişini yıxacaq, kişi də kreditləri arvadın üstünə yıxıb gedəcək, düşür qorxuya, başlayır danışmağa. Axı bu maşın nəyimizə lazım idi? Birtəhər ötüşürdük də.

Bu dəfə də kişini cin vurur:- Ay Allah, amansan, heç xəbərin yoxdu ki? Gündəgündə başımı xarab edən sən deyildin ki, xalxın arvadı maşınlarda gəzir, mən də bazardan qollarımda sizə yemək daşıyıram?

Bir gün də arvad görür ki, yox ey, ta bu kreditlərin əlindən evdə bişirməyə də bir şey tapmır. Başlayır yenə deyinməyə:- Axı uşaqdı da, dedi ki, ata məni qoy dərzilik öyrənim, oğlan da dedi ki, ay ata, elm mənlik deyil, qonşuluqdakı Həsən kişi yaxşı maşın ustasıdır. Qoy məni onun yanına, gedim öyrənim. Dedin ki, yox ey, gərək diplomunuz olsun. İndi nə zəmanədir ki, qonum-qonşunun uşağı təhsil ala, siz də sənət öyrənəsiniz. Bu dəfə kişi dəli olmasın, bəs nə eləsin. O tərəfdən qayıdır ki, arvad səsini kəs. Məni qızışdırıb ortaya salan sən deyildin? İndi başlamısan ayrı söz danışmağa. Sənə baş qoşan yerdə başım batardı, deyib, iki əli ilə başına bir qapaz endirir.

***

Amma nə faydası? Banklara kredit kredit üstündədir, ay da ki, elə başlamağı bilir, bir də görürsən ki, kreditin vaxtı çatıb. Zənglər dalbadala düzülüb. İndi gəl, başını itirmə görüm, necə itirmirsən. Əlində-ovcunda nə var, ver banka, otur, əlini aç Allaha, ruzi istə. Vallah, həqiqətən də bizimki Allaha qalıb. Allah köməyimiz olsun.

***Mətanət Məmmədova***

# Yaşamağım üçün qan verərsən?

***Qarşıdan 14 iyun - Ümumdünya Qan Donorları Günü gəlir. BMT-nin 2005-ci ildən etibarən ABO qan qrupu sistemini kəşf edən Nobel mükafatlı alim Karl Landştaynerin doğum gününü 14 iyunu "Ümumdünya Könüllü Qan Donoru Günü" elan edib.***

Məhz donorların o mükəmməl humanizmləri, anlayışları və empatiyaları sayəsində dünyada milyonlarla insan sağlamlığına qovuşur. Hər il oruclуq ərəfəsində Qafqaz Müsəlmanları İdarəsi qanvermə aksiyası təşkil edir, düşünün, bundan daha müqəddəs ibadət, humanizm, mərhəmət ola bilərmi? Qan verib həyat qurtarmaq, bir insanı ölümdən xilas etmək nə qədər dəyərlidir, deyilmi?

Hər il dünyada təxminən 112 milyon donor qeydiyyatdan keçir. Onların təxminən yarısı dünya əhalisinin 15 faizini təşkil edən yüksək gəlirli ölkələrdə yaşayır. Başqa sözlə desək, 62 ölkə könüllülərin təmənnasız verdiyi qan hesabına tam qan ehtiyatlarına malikdir. Qan donorluğu sağlamlığın və həyatın əsas simvolu olaraq xarakterizə edilir, müasir tibbdə yeganə mənbəyi insan olan həyati funksiyaya sahibdir. Qan verəcək şəxs 18-65 yaş aralığında, ən azı 50 kilo çəkidə olmalıdır.

Hər qanvermə üçün cəmi 1 ölçü vahidi qan verilir. 1 vahid qan təxminən 450 ml-dir. Bu nisbət bədənimizdəki qanın yüzdə 8 və ya 9-nu təşkil edir. Kişilər üç aydan bir, qadınlar isə dörd aydan bir qan verə bilər. Qan verdikdən sonra hüceyrələr təxminən 2 ay ərzində bərpa olunur. Ona görə də vaxtaşırı qan verməkdə problem yoxdur. Sağlam insan ildə 3-4 dəfə qan verə bilər.

Bu gün texnologiyanın inkişafına baxmayaraq qan laboratoriya mühitində istehsal oluna bilməyən və yeganə mənbəyi insanlar olan daimi ehtiyacdır. Bu səbəbdən mütəmadi olaraq qan vermək bir çox insanın həyatda qala bilməsi üçün ən vacib ehtiyac ola bilər. Qan donorluğu sosial məsuliyyətdir. Unutmaq olmaz ki, qanvermə könüllülük əsasında, təmənnasız olaraq həyata keçirilir və bir gün qan verən insanın və ya yaxınlarının da buna ehtiyacı ola bilər



Məlumat üçün qeyd edək ki, 2008-2018-ci illər arasında qlobal qan donorluğunda orta hesabla 10,7 milyon vahid artım müşahidə olunub. Sözügedən dövrdə qan donorluğunda ən yüksək artım Cənub-Şərqi Asiyada, Amerika və Afrika qitələrində müşahidə olunub. Dünya üzrə qan donorluğunun 33 faizi qadınlar, 67 faizi isə kişilər tərəfindən təmin edilib. Orta və yüksək gəlirli ölkələrlə müqayisədə aşağı gəlirli ölkələrdə gənclər daha çox qan verirlər.

Qarşıdan Aşura günü gəlir. Əvvəllər Azərbaycanda insanlar bu mərasimlərdə özünə xətər yetirib qan tökürdü, bu, dini inanca bağlı bir ayin idi. Hətta azyaşlı uşaqların qanını axıtmaqdan çəkinməyənlər də var idi. Lakin illərdir aparılan maarifləndirmə nəticəsində artıq həmin insanlar özünə xəsarət yetirmək əvəzinə qan verir və beləcə xeyriyyə işi ilə məşğul olurlar. Bu ənənənin formalaşması çox müsbət haldır, daha yaxşısı isə dövlət idarələrinin, özəl müəssisələrin, millət vəkillərinin də bu kampaniyaya könüllü şəkildə qoşulmasıdır.

Qanvermə aksiyalarının təşkil olunmasında əsas məqsəd bu kampaniyaya daha çox insanı dəvət etmək və onların maariflənməsinə dəstək olmaqdır. Bu mənada qanvermə aksiyası gözəl təşəbbüs kimi qiymətləndirilməlidir. Bu insanlar minlərlə insanın həyatını xilas etmiş olurlar. Təkcə bu davranış özü empatiyanı, mərhəməti aşılayır, yardımlaşmanın, köməkləşmənin mahiyyətini qoyur. Sözügedən məsələdə mətbuatın da rolunu da danmaq olmaz. Hər il məlum ayinin icrası ərəfəsində mətbuatda qanvermə aksiyaları ilə bağlı ciddi təbliğat işləri aparılır. Əvvəllər Aşura günündə baş verən hadisələri çəkib mətbuatda yayımlayan jurnalistlər indi qanvermə aksiyalarını təbliğ edirlər. Bu haqda onlarla məqalələr yazıldı, süjetlər, fotoreportajlar hazırlandı. Həqiqətən də media cəmiyyətin maariflənməsində böyük rol oynayır. Biz bunun bir daha şahidi olduq. Qanvermə aksiyasını gündəmə gətirənlər və onun yayılmasına dəstək olanlar məhz jurnalistlərdir.

Azərbaycanda orqan transplantasiyası çoxçeşidli deyil, ona görə donorluq üçün ümumi müraciət yoxdur, amma sadəcə, qan verərək insan həyatı qurtarmaq, bir canlını həyata bağlamaq qədər asan və gözəl nə var? Bəzən sosial şəbəkələrdə talassemiyalı xəstələr üçün qan elanı verilir, könüllülər çox olur, gedib təmin edirlər. Amma o könüllülər qan bankına qan vermir. Düşünürlər ki, onun xeyirxahlıq üçün verdiyi qanını sata bilərlər. Sizin verdiyiniz qan lazımı şəraitdə mühafizə edilir, ehtiyacı olan üçün göndərilir. Əgər qanınızı verməkdən çəkinirsinizsə, o zaman əlaqə vasitəsi qoyun, qan qrupunuza ehtiyacı olan xəstələr, qan axtaranda sizinlə əlaqə yarada bilsinlər.

Bu gün dünyada insanlar ilik donorluğu ilə xərçəng xəstəliyindən əziyyət çəkən milyonlarla can xilas edilər. Sizin sağlamlığınız üçün heç bir təhlükə yaratmayan bu kiçik prosedur xərçəngin yenməyə çalışdığı bir insanı, bir uşağı ölümdən qurtarır. Sizin verəcəyiniz bir şüşə qan bir talassemiya xəstəsini həyata qaytarır. Üstəlik, qan verməklə həm yaxşılıq etmiş olursunuz, həm də sağlamlığınıza xeyirdir. Donorluğu məqsəd, vəzifə, insanlıq borcu kimi görmək lazımdır. Bu gün qana ehtiyacı olanın yerində sabah biz də ola bilərik.

***Lalə Mehralı***

# Bakının Cənub girişi: bərbad vəziyyəti düzəltmək üçün nə etməli?

## Bu baxımsız ərazi paytaxtımız haqda ilkin təəssüratların müsbət olmasına mane olur və şəhərimizin gözəlliyinə xələl gətirir

***Yeni Salyan Şossesi. Yeni adı ilə Dənizkənarı küçəsi. Paytaxtın cənub girişi, yəni şəhərin mərkəzinə birbaşa əsas giriş yolu. Bakının Cənub girişi günü-gündən müasirləşən, abadlaşan paytaxtımızla müqayisədə çox geridə qalıb. Bibiheybət məscidindən Su İdmanı Sarayınadək uzanan təxminən 2 kilometr məsafədə boz çöllər, ötən əsrin 20-30-cı illərindən qalma istifadəyə yararsız, hələ də sökülməyən mənasız tikililər, artıq heç nəyə yaramayan köhnə neft buruqları, neft gölməçələri insanı məyus edir. Təəssüflə deməliyik ki, neftlə çirklənmiş bu ərazi Bakının 20-ci əsrin əvvəllərindəki miskin mənzərəsini xatırladır. Şəhərimizə gələn əksər qonaqların ilk gördüyü mənzərə və paytaxtımızla bağlı ilk təəssüratları da, buradan başlayır (fotolara bax).***



Məsələ yalnız görüntüdə də deyil. Xüsusilə yay aylarında neft buruqlarının ətrafındakı gölməçələrindən buxarlanan kəskin qoxulu qaz şəhərin ekologiyası və ətrafda yaşayan sakinlərin sağlamlığı üçün ciddi təhlükə mənbəyidir. Bundan başqa ərazidə qaz ixrac zavodu adlı müəssisə də var ki, gecələr onun buraxdığı qazın iyindən nəfəs almaq olmur. Bu xoşagəlməz qoxunu həmin sahədə inşa edilmiş jurnalist binalarının sakinləri də mənzillərində hiss edirlər. Bəzi məlumatlara görə, ərazidə zəif miqyaslı radiaktiv fon da mövcuddur. Küləkli havalarda ətraf toz-dumana bürünür, necə deyərlər, göz-gözü görmür. Baxımsız, qumsal ərazidən qalxan toz-torpaq şosse yolunu görünməz edir və ətrafdakı binaların mənzillərinə dolur.





Maraqlıdır, ərazidəki cinayətkarlıq mənbəyi olan tamamilə köhnə, uçuq, istifadəsiz tikililər kimə lazımdır? Qaranlıq vaxtı belə istifadəsiz və yararsız binalara narkomanların yığışdığı haqda da xəbərlər yayılır. Şübhəsiz ki, ərazi abadlaşdırılsa, burada yaşıllıq və park salınsa, mövcud problemlər də aradan qalxar.





Nəzərə almaq lazımdır ki, müxtəlif beynəlxalq tədbirlər və idman yarışları zamanı turist qismində respublikamıza gəlmiş qonaqların əksəriyyəti şəhərə bu yolla daxil olurlar. Gördüyünüz fotonu Bakıda beynəlxalq velosiped yarışları keçirilərkən lentə almışdım. Yüzlərlə əcnəbi velosipedçi bu dəhşətli mənzərələri seyr edə-edə yarışırdı. Üstəlik, bu kadrlar yarışı işıqlandıran xarici mediada da dərc olundu.

Azərbaycan Prezidenti cənab İlham Əliyevin tapşırıqları əsasında Bakıda aparılan genişmiqyaslı abadlıq, quruculuq və yaşıllaşdırma işləri fonunda paytaxtın əsas girişindəki acınacaqlı mənzərə xoşagəlməz təəssürat yaradır. Bəs, görəsən ARDNŞ-nin Ekologiya İdarəsi, BŞİH-in Yaşıllaşdırma İdarəsi, Ekologiya və Təbii Sərbətlər Nazirliyi bu acınacaqlı vəziyyətlə bağlı nə düşünür? Bu boş və çirkablı ərazidə səliqə-sahman yaratmaq, yararsız tikililəri sökdürmək, ağaclar əkmək dünya miqyaslı və nüfuzlu bir şirkətə çox çətindirmi?



Görünən odur ki, bilavasitə ARDNŞ üçün kadrlar hazırlayan Ali Neft Məktəbinin kampusunun da yerləşdiyi bu ərazi tamamilə "unudulub". Axı burada gələcəyin neftçiləri də təhsil alırlar, heç olmasa, onların səhhətini düşünmək lazımdır. Düzdür, son illər bu ərazinin bir hissəsində ağaclar əkilib, qismən yaşıllıq salınıb. COP-29-dan əvvəl isə, yalnız şosse yolunun kənarı boyunca 1-2 cərgə sıx tinglər əkildi ki, qonaqlar o tərəfi görə bilməsin, amma yenə də bu biabırçı mənzərə açıq-aşkar görünür. Ərazinin bərbad mənzərəsi fonunda bu işlər o qədər də nəzərə çarpmır. Neft buruqlarının xeyli hissəsi fəaliyyətini dayandırıb. Əlbəttə, neft ehtiyatlarına malik buruqların ətrafını abadlaşdırmaq, buranı açıq neft muzeyinə çevirmək, ərazidə idman meydançaları və parklar salmaq olar.

Son vaxtlar bu ərazinin yaxınlığınadək ciddi işlər görülüb- dənizkənarı bulvar Su İdmanı Sarayınadək uzadılıb, ərazi abadlaşdırılıb, yaşıllıq salınıb. Lakin Su İdmanı Sarayından Bibiheybət məscidinədək olan dənizkənarı və yolkənarı ərazi, fotolardan da, göründüyü kimi, bərbad vəziyyətdədir. Bakı Şəhər İcra Hakimiyyəti, Ekologiya və Təbii Sərvətlər Nazirliyi Nazirliyi, ARDNŞ bu ərazini abadlaşdıra, yaşıllaşdıra bilər.

Nəzərə almaq lazımdır ki, bu gün dünyada yaşıl sahələrin ən az olduğu şəhərlərdən olan Bakıda yaşıllıq sahələrinin həcminin artırılmasına da böyük ehtiyac var. Ümid edirik ki, yaşıllaşdırma və abadlaşdırma işlərinin mühüm bir qismi də paytaxtımızın cənub girişini əhatə edəcək, müasir şəhərimizin gözəlliyini pozan, ekoloji böhran məkanı olan bu ərazi yaşıllığa çevriləcək.

Paytaxt mərkəzinə ən yaxın ərazi kimi şəhər Cənub istiqamətində inkişaf edir, burada yeni binalar, infrastruktur obyektləri inşa edilir. Dənizkənarı zolağı, eləcə də tarixi "İpək Yolu"nun başlanğıcı olan bu magistral yolun ətrafını abadlaşdırıb yaşıllaşdırsaq, ölkəmiz, paytaxtımız, insanlarımız üçün gözəl bir iş görmüş olarıq.

***Elçin Bayramlı,***
***Sağlam Cəmiyyət Hərəkatının rəhbəri***

REPORTAJ

# Milli mətbuat 150: publisistika janrının müasir ”ömrü”

Azərbaycan Respublikasının Medianın İnkişafı Agentliyi

*Yazı Azərbaycan Respublikasının Medianın İnkişafı Agentliyinin maliyyə dəstəyi ilə fikir, söz və məlumat azadlığının, plüralizmin inkişaf etdirilməsi istiqaməti çərçivəsində hazırlanıb.*

VI YAZI



Bəzən adamın ürəyimdən yaxşı bir publisistik yazı oxumaq elə keçir ki... Əslində belə yazını qəzetləri vərəqləyib tapmaq, oradan oxumaq insanın istirahətini təmin edir, ruhunu dincəldir. Lakin müasir dövrdə istənilən qəzetin saytı var və oradan da oxumaq olar. Sadəcə olarsa...

Təəssüf ki, ənənəvi medianı üstələyən sosial media əsasən xəbərə xidmət edir. Gün ərzində çoxsaylı agentlik və saytların əksəriyyətinin özünün istehsalı deyil, oğurladığı xəbərlər sanki həyatımıza və vaxtımıza qənim kəsilib. Xəbər, xəbər, xəbər. Hazırda mətbuatımız yalnız xəbərdən ibarət olub.




## Sosial həyat və ədəbiyyat

Publisistika termini XIX əsrdə yaranmış və uzun müddət sosial ədəbiyyat mənasında işlənmişdir. Publisistikanın məqsədi həyatı əks etdirmək, tədqiq etmək, onun haqqında kütləni düşündürəcək, inandıracaq formada danışmaqdır. Hal-hazırda jurnalistikanın hər janrını publisistika adlandıranlar var. Razısınızmı bu fikirlə? Xəbər necə publisistika ola bilər? Bir siyasi, iqtisadi təhlil necə, publisistika ola bilərmi? Publisistika janrından bu janrlara azacıq qatmaq olar, lakin janrlar var ki, onları publisistikaya çevirmək mümkün deyil. Elə tək dövrümüzün xəbər janrından danışmaq bu suala lazımı cavab vermək üçün yetərlidir.

Həmişə deyirəm ki, publisistik yazılar qəzetin istirahət yeridir. Siyasi, iqtisadi yazıları, xəbərləri oxuyan oxucu publisistik yazılarda yorğunluğunu çıxarır, dincəlir, sosial həyatını tapır. Probleminin həlli yollarını yumşaq bir ”dildə” oxuyur. Bəzən publisistik yazılar insanlara yeni fikirlər verir. Ruh, qanad verir, onlara bilmədiyini, necə edəcəyini, düşünüb necə addım atacağını öyrədir. Publisistikanın ədəbiyyata yaxın qolları isə bir filmdir, musiqidir, təbiətin qoynunda dincəlmək, ondan həzz almaq, vurğunluq, sevgi, məhəbbətdir, insanın sanki ruhunun yenilənməsi, ruhunun dincəlməsidir.

Lakin tapa bilirikmi belə yazılar? Hələ axtardığın yazı qalsın bir kənarda, bəlkə də qəzeti vərəqləmək istəyənlərə ”geridə qalmışa bax, indi bütün informasiyalar işıq sürətilə sosial şəbəkələrdən süzülüb axır, bu hələ bir qəzet səhifələyib nə isə axtarmaq fikrindədir”,- deyib gülənlər də ola bilər. Amma elə bəzi bədbəxtliklərimiz bu mənasını bilmədiyimiz və yersiz gülüşlərdən başlamırmı?

## İnternetlə müasirləşə-müasirləşə...

Həyatımızın bütün tərəflərini internetləşdirmişik. Bu, əgər müasirlikdirsə, necə deyərlər, Allah kəssin bu müasirliyi ki, bir-birimizin əhvalını da burada soruşuruq, bayramı da, ad günümüzü də burada qeyd edirik. Valideynlərimizi də burada ziyarət edirik. Qorxuram ki, yaxın gələcəkdə qəbirlərimiz də buradan ziyarət oluna.

Deyirlər ki, dərdli danışqan olar. Axır zamanlar hiss edirəm ki, bəzi yazılarımın girişində mətləbdən xeyli uzaqlaşıram. Məni anlayanlar bunu yəqin ki, qüsur hesab etməzlər. Hər şeyi müasirləşdirə-müasirləşdirə hara gedirik biz? Axı artıq arxada nə isə qoymuruq qala. Bir gün ”biz kimik” sualına, vallah, cavab axtaracağıq. Nə isə, keçim mətləbə.

Müasir dövrümüzdə bütün sahələr kimi, mətbuatımız da internet dünyasının gətirdiyi yeniliklərlə, bu yeniliklərə bir az da özümüzün qatdığı ”yeniliklərlə” xeyli dəyişikliklərə məruz qalıb. Bütün kütləvi informasiya vasitələrinin indi yeni iş qaydası var. Bunu iş qaydası adlandırmaq məncə bir o qədər düzgün deyil. ”Xəbər axtarışına çıxmaq” adlandırsaq, daha çox yerinə düşmüş olar. Əsasən informasiya agentlikləri, saytlar xəbər müharibəsindədirlər. Gün ərzində kim qalib gələcək, bunu daha çox axtarışda olanlar qazanır sözsüz ki. Bu, əslində yaxşı bir haldır. Mətbuatın bütün sahələri operativlik istəyir. Lakin mətbuatımızı bütövlükdə xəbərləşdirmək də düzgün deyil.

## 30-dan çox qəzet janrı var

Xəbərləşdirmək başqa janrlardan bixəbərliyimizlə nəticələnir. Bir də ki, eyni xəbəri gün ərzində neçə dəfə oxumaq olar? Bəla orasındadır ki, bəzi jurnalistlərimiz xəbər də istehsal edə bilmirlər. Başqalarının xəbərləri hesabına xəbər verirlər. Müasir mətbuatımızın ”baş tacına” çevrilən xəbərin bax müasir dövrdə bəxti belə gətirib. Bütün janrları sıxışdırıb, keçib yerlərinə. İndi mətbuatımız xəbər, reportaj və müsahibə janrlarından ibarət bir-birinə bağlı zəncirvarı reaksiyanı xatırladır. Belə ki, bir xəbər yayılır, jurnalistlərimiz xəbəri yazır, həmin xəbərin yerindən reportaj hazırlayır, ardınca da müsahibə alırlar. Hələ bu xəbər, reportaj və müsahibənin janr xüsusiyyətlərini ödəyib-ödəməməsi barədə danışmaq fikrində deyiləm. Beləliklə də digər janrlar günü-gündən mətbuatımızın çoxsaylı qəbiristanlıqlarında dəfn olunur.Mətbuat janrlarının ümumi mənzərəsini Bakı Dövlət Universitetinin professoru, hər bir jurnalistin sevimli müəllimi, istedadlı insan, mərhum Famil Mehdi sıralayaraq deyirdi: ”Xəbər, hesabat, müsahibə, reportaj, korrespondensiya, məqalə, icmal, resenziya, məktub, mətbuat xülasəsi, zarisovka,



oçerk, felyeton, pamflet və təmsil, şarj, parodiya. Ancaq bu siyahıya esse, söz, gündəlik, səfərnamə, bədii-publisist, tərcümeyi-hal, xatirə, bədii nitq, nekroloq və başqalarını da əlavə etmək lazımdır”. Digər sevimli müəllimimiz Cahangir Məmmədli isə bu janrların hər birinin yaradıcılıq məqamında jurnalistin özünüifadə aktına çevrildiyini qeyd edir, vurğulayır ki, janr müəllifə özünüifadə üçün xüsusi imkan yaradır.

Qəzet janrları bütövlükdə bir qəzetin ərsəyə gəlməsində, onun hər sayının oxucu zövqünü oxşamasında sanki birləşərək böyük bir vəzifəni yerinə yetirirlər. Məqalə, xəbər, reportaj, korrespondensiya, xülasə, oçerk, felyeton və sair-bunların hər biri ayrı-ayrılıqda oxucunun qəzetin növbəti sayında bu janrlar nəyi işıqlandıracaq marağını meydana çıxarır.

Jurnalistlərin peşəkarlıq səviyyəsinə yüksəlməsində janr məqamının böyük rolu var. Qəzet redaksiyalarının müxtəlif şöbələrində çalışan jurnalistlər daim yazdıqları janrların sayəsində püxtələşir, zaman-zaman yaxşı xəbərçiyə, icmalçıya, oçerkist, felyetonçuya, ən başlıcası isə peşəkar jurnalistə çevrilirlər. 30-dək mətbuat janrının tək 2-3-dən istifadə edilməsi mətbuatımızı haraya aparır, bu barədə düşünməyə çoxdan başlamışıq, lakin hamımız yox, bir neçələrimiz.



## Dinlə, gənc jurnalist!

Müasir mətbuatımızda tək xəbərçilərmi yetişdirilir? Oxucunun necə, həyatı tək xəbərlərdənmi ibarətdir? Axı onun ətrafında minlərlə felyetonun mövzusu cərəyan edir. Axı işğaldan abad olunmuş rayonlarımız da daxil olmaqla, ölkəmizdə aparılan quruculuq işləri nəticəsində abadlaşan yurdlarımızın hüsnü, torpağa tər verib zər alan zərmətkeş insanların sübh çağından gün batanadək maraqlı həyatı, bir şəhid, bir müəllim, bir həkim, bir fəhlə ömrü yüzlərlə oçerklərdə yaşamağa layiqdir. Bütün bunlar həmçinin gözəl məqalələrdə də təhlil oluna bilər.

Bədii-publisistika həyatın özüdür. Biz həyatımızın gözəlliklərini də, çirkinliklərini də bu janrda canlandıra, oxunaqlı yazılara çevirə bilərik. Zarisovka, pamflet, parodiya, təmsil, ümumiyyətlə, yoxa çıxdığından bu barədə nə danışasan ki?..

Həcmi çox vaxt geniş xəbər qədər olan esse janrının bəxtini də xəbər qədər gətirə bilmədik. Dörd fəsil bir-birinin ardınca ötür, keçir. Gənc jurnalistlərimizin qələmindən payızın yarpaq tökümünü xışıltıya çevirən füsnundan, qışın qarının bəyazından, baharın düymə tumurcuqlarından ”istehsal olunan” ağ, çəhrayı örpəklərdən, yayın yaşıl gözlərindən yazıb oxucu zövqünü oxşayan bir esse necə də oxumaq istərdik. Hələ gözlərimiz önündəki fəsillərdən söhbət açdım, minlərlə esse mövzuları var. Onları təbiətdən, yurd yerlərimizdən, ailələrimizin fonunda milli dəyərlərimizdən, insan taleyindən yazılara köçürüb qəzet səhifələrinə yerləşdirmək gözəl olmazdımı?

## Bir foto bir fikir

Fotojurnalistikanı bu gün günün günorta çağında əlimizdə çıraqla axtarsaq, bəlkə bəzi mətbuat orqanlarında az sayda tapa biləık. Yaxşı, yeri gələndə deyirik ki, publisistika çətin jandır, hər kəs bu janrda yazmağı bacara bilmir. Bunun üçün anadangəlmə qabiliyyət olmalıdır, şair təbiətli, nə bilim yazıçı ruhlu olmalısan kimi onlarla bəhanə gətiririk. Bəs müasir gövrdə hamımızın əlində telefon olduğu halda fotojurnalistikanı niyə dəft etmişik publisistikanın yanına? Yəni küçədə, parkda, yolda, bağ-bağçada, mağazada elə an yoxdur ki, fotoya köçürüb bir cümlə ilə onu canlandıraq? Axı bu, elə bir janrdır ki, bəzən 3-5 dəqiqəyə oxuya biləcəyimiz xəbərdən tez ondan məlumatı ala bilirik? Bir baxışla baş verən hadisədən, problemdən, təbiətin gözəlliyindən xəbərdar oluruq. Bu janr indi daha çox inkişaf etdirilməlidir. Əvvəllər redaksiyalarda fotomüxbirlərə ehtiyac vardı. İndi telefonlar fotoaparatlardan da gözəl və keyfiyyətli şəkillər çəkir və maraqlı hal ondan ibarətdir ki, hər kəs bu işi çox yaxşı bacarır. Belə isə yəqin biz jurnalistlər sadəcə baxırıq, görmürük.

## Sələfimizin xələfi olaq

Xülasə, bəzən oxucuları günahlandırırıq ki, sosial şəbəkələrdə daha çox vaxt keçirir, mətbuatdan kənarda qalırlar. Vallah bunun günahı biz mətbuat işçilərindədir. Nə etsin oxucu, yazıldı, qarşısına çıxdı, oxumadı? Ələcsız qalan oxucu təbii ki, ancaq xəbər oxuyacaqdır da. Çünki yuxarıda da qeyd etdiyim kimi indi ancaq xəbər savaşındayıq, başqa janrları unutmuşuq.

Bu mövzu elə bir mövzudur ki, səhifə-səhifə yazsaq da bitməz. Lakin çox uzun da yazıb oxunaqsız material olmasın deyə buradaca yazını bitirirəm. Son sözüm isə budur ki, necə ki biz bu gün ötən illərin qəzetlərini vərəqləyəndə bütün janrların ahəng təşkil etdiyi qəzetlərə ”bəh-bəh” deyirik, bir zaman da bizim mətbu nümunələrimiz eləcə vərəqlənəcək. Oxucunun təəssüratı nə olacaq, bax, gəlin, bunu düşünək: sələfimizin xələfi ola bilirikmi?

***Mətanət Məmmədova***

SON SƏHİFƏ
SƏS
11 iyun
2025-ci il

# "Fermerlərin bazarlara birbaşa çıxışı asanlaşdırılmalıdır"

*İqtisadçı mühüm məqamlara aydınlıq gətirdi*



"Bakı şəhərində kənd təsərrüfatı məhsullarının bahalaşmasının bir neçə əsas səbəbi var". Bu sözləri SİA-ya açıqlamasında İqtisadi və Sosial Araşdırmalara yardım İB sədri, iqtisadçı tədqiqaçı Eyyub Kərimli deyib. Eyyub Kərimli sözlərinə belə davam edib: "İlk növbədə, bölgələrdən gətirilən məhsullar - xüsusilə də meyvə-tərəvəz və digər tez xarab olan məhsullar - bir neçə vasitəçinin əlindən keçir. Hər vasitəçi öz qazancını məhsulun üzərinə əlavə etdiyindən, bu, qiymətin artmasına birbaşa təsir edir. Bundan əlavə, nəqliyyat xərcləri, bazar icarə haqları və bəzən də yol boyu baş verən itkilər məhsulun maya dəyərini artırır. Məsələn, bəzi hallarda məhsullar Bakıya çatana qədər xarab olur və bu itki də son qiymətə təsir göstərir.

Nəticə etibarilə, fermerlərdən alınan məhsulların şəhər bazarlarında satış qiyməti kəskin şəkildə artır və bu da istehlakçılar üçün bahaçılıq yaradır. Bu problemin qarşısını almaq üçün aşağıdakı tədbirlər vacib hesab olunur:

1. Bakıda meyvə-tərəvəz bazarlarının sayı artırılmalıdır. Bu, həm rəqabət mühitini gücləndirər, həm də qiymətlərin süni şəkildə şişirdilməsinin qarşısını alar.

2. Fermerlərin bazarlara birbaşa çıxışı asanlaşdırılmalıdır. Onların məhsullarını aradan vasitəçilər çıxmadan satması üçün şərait yaradılmalıdır.

3. Şəbəkə marketlərdə fermerlərə satış imkanları tanıdılmalıdır. Bəzi hallarda bu marketlərdə məhsullar daha ucuz başa gəlir. Lakin həmin marketlər özləri məhsulu fermerdən alsalar belə, bəzi hallarda qiymət fərqi yaranır və məhsul bazarla müqayisədə daha baha satılır. Bu isə əlavə suallar doğurur. Bu səbəbdən qiymət artımının qarşısını almaq üçün həm təchizat zənciri sadələşdirilməli, həm də rəqabət imkanları genişləndirilməlidir. Sadə dillə desək, fermerin məhsulu birbaşa istehlakçıya çatmalı və bu prosesdə şəffaflıq təmin olunmalıdır".

*Ayşən Vəli*

## ELAN

Qərbi Kaspi Universitetinin Ekologiya fakültəsinin tələbəsi Ayşəgül Bəxtiyar qızı Hümmətovaya məxsus tələbə bileti itdiyi üçün etibarsız sayılır.




"SƏS" qəzetinə abunə kampaniyası davam edir!

«SƏS» QƏZETİNƏ ABUNƏ OLMAQ İSTƏYƏNLƏR AŞAĞIDAKI YAYIM ŞİRKƏTLƏRİ İLƏ ƏLAQƏ SAXLAYA BİLƏRLƏR

1. Azərpoçt Poçtdaşıma Mərkəzi – 0125984955, 0552004544
2. Azərmətbuat Yayım MMC – 0124411991, 0124404694
3. Səma Mətbuat Yayım – 0125940252, 0503336969
4. Pressaİnform MMC – 0125115191, 0504560835, 0553156002
5. Qaya Mətbuat yayım – 0125667780, 0502352343
6. Ziya LTD – 0124977696, 0503067744

1 nüsxə 1 aylığı 13.20 AZN
6 aylıq 79.20 AZN
1 illik 158.40 AZN

ABUNƏÇİLƏRİMİZİN XİDMƏTİNDƏYİK
Müraciət, şikayət, yazı, təbrik və başsağlıqlarınızı dərc etməyə hazırıq!


# Bu uşaqlar avtomatik 1-ci sinfə yerləşdiriləcək



3 iyun 2025-ci il tarixində rus bölməsi üzrə məktəbəhazırlıq qruplarında təhsil alan və tədris digər dillərdə aparılan bölmələr üzrə müsahibədə uğur qazanan uşaqlar avtomatik olaraq 1-ci sinfə yerləşdiriləcək. Bu barədə SİA-ya Məktəbəqədər və Ümumi Təhsil üzrə Dövlət Agentliyindən məlumat verilib. 17 iyun 2025-ci il saat 11:00-dan etibarən isə tədris digər dillərdə aparılan bölmələr üzrə müsahibədə uğur qazanan uşaqlar üçün məktəb və müəllim seçimi prosesinə start veriləcək.

Qeyd edək ki, 1 may 2025-ci il tarixində başlayan ümumi təhsil müəssisələrinin birinci siniflərinə qəbul prosesi www.mektebeqebul.edu.az portalı vasitəsilə həyata keçirilir və 12 sentyabr 2025-ci il tarixinədək davam edəcək.

# "Avtoşluq" edib sosial şəbəkədə paylaşdı, 15 sutka həbs olundu...



Baş Dövlət Yol Polisi İdarəsinin (BDYPİ) Yol Patrul Xidməti Alayının əməkdaşları tərəfindən həyata keçirilən tədbirlərlə "VAZ 2107" markalı avtomobilin sürücüsü Mahir Namiq oğlu Məmmədlinin Ələt-Astara magistral avtomobil yolunda ictimai qaydanı kobud şəkildə pozaraq avtoxuliqanlıq etdiyinə dair sübutlar toplanıb. İdarədən mətbuata verilən məlumata görə, araşdırma zamanı məlum olub ki, M. Məmmədli nəqliyyat vasitəsini sürücülük hüququ olmadan idarə edib və həmin təhlükəli hərəkətləri videoya çəkərək sosial şəbəkələrdə yayımlayıb. Onun törətdiyi hərəkətlər digər hərəkət iştirakçılarının həyat və sağlamlığı üçün ciddi təhlükə yaradıb.

Toplanılmış materiallar məhkəməyə təqdim olunub və məhkəmənin qərarı ilə M. Məmmədli 1 il müddətinə nəqliyyat vasitəsi idarə etmək hüququndan məhrum edilib, eyni zamanda, 15 sutka inzibati qaydada həbs olunub.

Baş redaktor:
Bəhruz Quliyev

Ünvanımız:
Bakı şəhəri,
Üzeyir Hacıbəyli küçəsi, 66.
Şəhadətnamə:№ 022492
http://www.ses-news.az
http://www.sesqazeti.az
E-mail: ses@sia.az
"ƏLİNCƏ" AZƏRBAYCAN XEYRİYYƏ CƏMİYYƏTİNİN ORQANI.
QƏZET 1991-Cİ İL YANVARIN 11-DƏN ÇIXIR
Tel: 598-33-90
Faks: 493-11-62

Redaksiyanın mövqeyi ilə müəllifin mövqeyi üst-üstə düşməyə bilər.

Qəzet bazar və bazar ertəsindən başqa hər gün nəşr olunur

Tiraj: 3000